

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Dini bütöv, mənəviyyatı dərin Azərbaycan!



15

# "Brüssel formatı" və erməni sindromu



5

№ 084 (6767)

SƏS

16 may 2023-cü il.
Qiymәti 60 qәpik

# Türkiyənin ikinci tur sınağı



8

## AİLƏ: "Mən"dən "biz"ə keçid



9

## Şəhid ailələri və qazilərə sosial dəstək



11

## "Azərbaycan istənilən halda öz məqsədinə çatacaq"



10



14

## Putinin məqsədi nədir?

## Oyuna salan oyunlar...



12

# “Azərbaycan bizə dost ölkədir”

*Prezident İlham Əliyev Misir parlamentinin Nümayəndələr Palatasının sədrini və Özbəkistan Ali Məclisi Senatının sədrini qəbul edib*





Prezident İlham Əliyev mayın 15-də Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Hanaf Ali Əl Gebalini qəbul edib. Prezident İlham Əliyev Misir parlamenti Nümayəndələr Palatasının sədrinə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakına görə təşəkkürünü bildirdi. Ulu Öndərin Azərbaycanın dövlət quruculuğunda müstəsna rol oynamış bir şəxsiyyət olduğunu vurğulayan dövlətimizin başçısı, eyni zamanda, Ümummilli Liderin Azərbaycan-Misir əlaqələrinin inkişafında böyük xidmətlərini qeyd etdi.

Prezident İlham Əliyev Misir Prezidenti Əbdülfəttah Əs-Sisinin Azərbaycana səfərini məmnunluqla xatırladı, bu səfərin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini dedi, səfər zamanı Azərbaycanla Misir arasında müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari əlaqələrin inkişafı, enerji, kənd təsərrüfatı, səhiyyə və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd etdi.



Dövlətimizin başçısı salamlarını Misirin Prezidentinə çatdırmağı xahiş etdi. Azərbaycanda özlərini ölkələrindəki kimi hiss etdiklərini deyən qonaq Azərbaycanla Misir arasında çox möhkəm qardaşlıq münasibətlərinin mövcud olduğunu vurğuladı. ”Azərbaycan bizə dost ölkədir və dostluğumuzun böyük tarixi var”, - deyən Hanaf Ali Əl Gebali qeyd etdi ki, Misirdə Ulu Öndərin xatirəsi daim böyük ehtiramla anılır. O vurğuladı ki, ölkə üçün çox çətin vaxtlarda məhz Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan bütün sınaqlardan uğurla çıxaraq inkişaf yoluna qədəm qoyub və Prezident İlham Əliyev bu siyasəti müvəffəqiyyətlə davam etdirir.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı, bu xüsusda dövlətimizin başçısının Ərəb Dövlətləri Liqasının Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı.

Qonaq Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu fəaliyyətinə görə təbriklərini çatdırdı, məhz Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının dünyada rolunun və nüfuzunun daha da artdığını qeyd etdi. Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

Dünən Prezident İlham Əliyev həmçinin Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul edib. Prezident İlham Əliyev Tənzilə Narbayevanın rəhbərlik etdiyi nümayəndə heyətinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakını yüksək qiymətləndirərək Ulu Öndərin xatirəsinə göstərilən ehtirama görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Özbəkistana səfəri zamanı Prezident Şavkat Mirziyoyevlə birlikdə Ulu Öndərin abidəsinin və onun adını daşıyan parkın açılmasını da bu ehtiramın təzahürü olduğunu dedi. Ümummilli Liderin dost və qardaş Özbəkistanla və Özbəkistan xalqı ilə əlaqələrə böyük diqqət yetirdiyini xatırladan Azərbaycan Prezidenti bu siyasətin bu gün də bütün istiqamətlərdə davam etdiyini məmnunluqla vurğuladı. Prezident İlham Əliyev Özbəkistanın dövlət başçısı ilə dostluq münasibətlərinin ikitərəfli əlaqələrimizin genişlənməsi işinə xidmət etdiyini bildirdi və bu işdə qarşılıqlı səfərlərin önəmini qeyd etdi.

Dövlətimizin başçısı bu yaxınlarda Füzulidə olarkən Özbəkistan Prezidenti tərəfindən özbək xalqı adından hədiyyə olaraq burada inşa edilən məktəb binasında aparılan tikinti işləri ilə tanış olduğunu məmnunluqla bildirdi. Prezident İlham Əliyev Tənzilə Narbayevanın ölkəmizə səfərinin də əlaqələrimizin inkişafı baxımından önəmini qeyd etdi.

Tənzilə Narbayeva, ilk növbədə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Özbəkistan Prezidenti strateji tərəfdaşlığa söykənən Azərbaycanla dostluq əlaqələrini yüksək qiymətləndirir və Azərbaycan Prezidentinə qardaşlıq münasibətləri bəsləyir.

Azərbaycan Prezidenti salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanda uğurlu islahatların aparıldığını dedi, bu yaxınlarda keçirilmiş referendum münasibətilə təbriklərini çatdırdı. Öz növbəsində Tənzilə Narbayeva hər iki dövlət başçısının rəhbərliyi ilə Azərbaycan və Özbəkistanda bütün sahələrdə uğurların əldə edildiyini vurğuladı.

Özbəkistan Ali Məclisi Senatının sədri Ümummilli Liderin 100 illiyinə həsr olunmuş Milli Məclisin xüsusi iclasında iştirakından məmnunluq hissi keçirdiyini bildirərək Ulu Öndərin ölkələrimiz arasında dostluq münasibətlərinin qurulmasında xüsusi rolunu qeyd etdi. Vurğuladı ki, Özbəkistanda Ulu Öndərin xatirəsi dərin hörmətlə yad olunur və dahi şəxsiyyətin anadan olmasının 100 illiyi münasibətilə tədbirlər davam edir. Qonaq bildirdi ki, torpaqlarımızı işğaldan azad etməklə Azərbaycan Prezidenti ata vəsiyyətini yerinə yetirib və Azərbaycan xalqının qəhrəmanı olaraq tarixi missiya həyata keçirib.

O, eyni zamanda, Qoşulmama Hərəkatına Azərbaycanın uğurlu sədrliyini xüsusilə qeyd etdi və ölkəmizin rəhbərliyi ilə Hərəkatın nüfuzunun artdığını, onun təsisatlanması istiqamətində mühüm işlərin görüldüyünü vurğuladı. Qonaq Özbəkistandan Azərbaycana səfər edən nümayəndə heyətlərinə daim göstərilən diqqətə görə də təşəkkürünü bildirdi. Söhbət zamanı xalqlarımız arasında ortaq tarixi köklərin, mədəniyyət və dil bağlılığının olması xüsusilə qeyd edildi.

Görüşdə qeyd edildi ki, maşınqayırma, kənd təsərrüfatı, tekstil sənayesi, energetika, investisiya qoyuluşu və digər sahələr üzrə konkret layihələr və birgə Fond var. Hər iki prezident tərəfindən bu layihələr davamlı şəkildə diqqət mərkəzində saxlanılır. Ölkələrimizin beynəlxalq təşkilatlar, Türk Dövlətləri Təşkilatı çərçivəsində uğurlu əməkdaşlığı vurğulandı, gənclər sahəsində əməkdaşlığın, Azərbaycan və Özbəkistan gənclərini bir araya gətirən forumların keçirilməsinin önəmi bildirildi.



## Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Dövlətimizin başçısı Türkiyədə keçirilən prezident və parlament seçkilərində səs çoxluğu qazanması münasibətilə Prezident Ərdoğanı və Cümhur İttifaqını təbrik edib.

Prezident İlham Əliyev qeyd edib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə Respublikası böyük inkişaf yolu keçib və bunun təzahürü olaraq qardaş Türk xalqı öz liderinə bu seçkilərdə də etimad göstərib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Telefon söhbəti zamanı dövlət başçıları iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin daimi və sarsılmaz olduğunu bir daha qeyd ediblər.





# Beynəlxalq layihələrin müəllifi və təşəbbüskarı - Azərbaycan!

## "Ulu Öndər Azərbaycanın ərəb ölkələri ilə münasibətlərinin inkişafına çox böyük töhfə verib"

Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır, ölkəmiz etibarlı tərəfdaşa çevrilməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət nəticəsində Azərbaycanın Avropa ölkələri, Türk dünyası ilə olduğu kimi, ərəb dövlətləri ilə münasibətləri də yeni inkişaf mərhələsinə qədəm qoyub. Əlbəttə ki, Azərbaycanın ərəb dünyası ilə böyük tarixi-mədəni bağlılığı var. Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ərəb Parlamentinin prezidenti Adel bin Əbdulrəhman əl-Asumini qəbul etməsi bu əlaqələrin davamlılığına söykənir.Ötən tarixi dövrə nəzər salsaq görərik ki, Azərbaycanın ərəb dünyası ilə tarixi-mədəni bağlılığı yaradan sənədlər mövcuddur. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında diplomatik əlaqələr yaradılıb. İki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər qurulub. Belə ki, Azərbaycanın 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyi təsis edilib. Həmin səfirlik 2001-ci il 16 iyun tarixindən etibarən BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində fəaliyyət göstərir. Bundan başqa 14 mart 2012-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dubay şəhərində Baş Konsulluq təsis edilib. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanması, 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfəri və s. bu ikitərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verir.

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə cari ildə işgüzar səfəri mövcud münasibətlərin davamlığını, strateji əhəmiyyət kəsb etdiyini göstərir. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında dünyanın dayanıqlı inkişafının sürətləndirilməsini hədəfləyən beynəlxalq platforma olan Əbu-Dabi Dayanıqlılıq Həftəsinə Azərbaycan Prezidentinin dəvəti dövlət başçısının rəhbərliyi ilə sürətlə inkişaf edərək mühüm beynəlxalq layihələrin müəllifinə və təşəbbüskarına çevrilən ölkəmizin dünya miqyasında artan nüfuzunun göstəricisidir. 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi planetimizin gələcəyində payı olan dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, sərmayəçiləri, iş adamlarını və gəncləri aktual məsələlərin müzakirəsi üçün bir araya gətirir. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bu sahədə imkanlarını daha da şaxələndirir və elektrik enerjisi, əsasən, yaşıl enerjinin önəmli təchizatçısına çevrilməyi planlaşdırır. Ərəb Parlamentinin prezidenti Adel bin Əbdulrəhman əl-Asuminin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakından məmnunluğunu ifadə edən Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin Azərbaycanın ərəb ölkələri ilə münasibətlərinin inkişafına çox böyük töhfə verdiyini qeyd edib. Bu gün də bu siyasət Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Cənab Prezident tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev Ərəb Parlamentinin prezidentinin ölkəmizə səfərinin əməkdaşlığın genişlənməsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib. "Sizin kimi böyük dünya lideri ilə görüşməkdən və Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən bu tədbirlərdə iştirak etməkdən şərəf hissi duyuruq, - deyə qonaq bildirib.

### XALQLARIMIZI BİRLƏŞDİRƏN ORTAQ TARİX

Dövlət başçımız özünün ərəb ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərinin və qarşılıqlı səfərlərin bunun əyani sübutu olduğunu bildirib. Xalqlarımızı ortaq tarixin birləşdirdiyini vurğulayan dövlətimizin başçısı ərəb ölkələri ilə münasibətlərin uğurla və hərtərəfli inkişaf etdiyini söyləyərək, ötən il Ərəb Liqasının Zirvə Toplantısına dəvət olunmasını əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirib. Məlumdur ki, ərəb ölkələri mütəmadi olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə öz dəstəyini də ifadə ediblər. Həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də Zəfərimizdən sonra Azərbaycanla həmrəy olmuş, eləcə də Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çoxsaylı qətnamələr qəbul edilmişdir. Azərbaycan Prezidenti 30 illik işğal dövründə ermənilərin xalqımıza qarşı mədəni soyqırımı törətdiklərini bildirərək, həmin ərazilərdə onların İslam maddi-mədəniyyət irsini məhv etdiklərini, 67 məsciddən 65-ni dağıtdıqlarını diqqətə çatdırıb. Azərbaycanın erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş ərazilərində törədilmiş vandalizm əməllərinin nəticəsi olaraq evlər talan edilərək sökülüb, yandırılıb, tarixi abidələr, xüsusilə, qəbiristanlıqlar dağıdılıb. İşğal olunmuş Azərbaycan rayonlarının talan və qarət edilməsində, o cümlədən, evlərin, abidələrin, qəbiristanlıqların sökülməsində əsir və girovların əməyindən istifadə edilməsi də danılmaz faktdır. Bu baxımdan, Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

Dövlətimizin başçısı Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işləri haqqında məlumat da diqqətə çəkib. Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapmaqdadır. Əlbəttə ki, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir. İşğaldan azad edilmiş ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir. Həmin ərazilərimizin hər biri məhz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Ağalı kimi müasir məkana çevriləcək və buranın əzəli sakinləri rahat, təhlükəsiz bir şəraitdə bu yerlərdə əbədi olaraq yaşayacaqlar.

*Zümrüd BAYRAMOVA*

# Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan parlamentinin sədrini qəbul edib

**Prezident İlham Əliyev mayın 15-də Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilini qəbul edib. Dövlətimizin başçısı Azərbaycanla Gürcüstan arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini deyib və parlamentlərarası əlaqələr sahəsində səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu bildirib.**

Prezident İlham Əliyev Şalva Papuaşvilinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Azərbaycan Respublikası Milli Məclisinin xüsusi iclasında iştirakının əlaqələrimizin genişlənməsi baxımından önəmini qeyd edib. Dövlətimizin başçısı özünün Gürcüstana səfərini, Gürcüstanın Baş nazirinin isə Azərbaycana səfərini məmnunluqla xatırlayıb və bu səfərlər zamanı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar çox ətraflı müzakirələrin aparıldığını qeyd edib.

Prezident İlham Əliyev 1990-cı illərin əvvəllərində Azərbaycanın və Gürcüstanın üzləşdiyi problemlərə toxunub, birgə layihələrin icrasının əhəmiyyətini vurğulayıb. Bu xüsusda ilk layihə kimi Bakı-Supsa neft boru kəmərinin reallaşdırıldığını diqqətə çatdırıb və bundan sonra digər layihələrin də uğurla həyata keçirildiyini deyib.

Şalva Papuaşvili Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirdə iştirak etməkdən şərəf hissi keçirdiklərini bildirib. Qonaq Ümummilli Liderin Azərbaycanın hərtərəfli inkişafındakı rolunu vurğulayaraq, eyni zamanda, məhz onun rəhbərliyi ilə strateji layihələrin həyata keçirildiyini qeyd edib. Gürcüstan parlamentinin sədri vurğulayıb ki, vaxtilə Ulu Öndərin atdığı müdrik addımlar Azərbaycanın gələcəyi üçün böyük önəm daşıyır. O, Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələrinin qurulması işində şəxsən Azərbaycan Prezidentinin roluna görə minnətdarlığını bildirib.



Qonaq ölkələrimizin həyata keçirdiyi birgə layihələrin əhəmiyyətinə toxunaraq, bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın Qara dənizin dibi ilə elektrik xəttinin çəkilişi layihəsini, həmçinin Azərbaycanla olan tərəfdaşlarla birlikdə Qara dənizin dibi ilə sualtı fiber-optik kabel xətti kimi irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd edib. Şalva Papuaşvili Azərbaycanın və xalqımızın Gürcüstan üçün çətin dövrlərdə ölkəsinin ərazi bütövlüyünü dəstəklədiyini yüksək qiymətləndirib. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Söz əməlin kölgəsidir

## PREZİDENT İLHAM ƏLİYEV: "Qarşımızda Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması kimi böyük çağırış dayanır"



Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur. "Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manea ola bilməz",-deyən Azərbaycan Prezidenti İlham Əliyev hər dəfə işğaldan azad olunmuş torpaqlara səfərləri bir daha göstərir ki, işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz.

Bəli, nəticə göz qabağındadır. Bu gün - 30 ildən sonra isə dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub. Bütün bu uğurlar Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Müzəffər Ali Baş Komandanın "Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik".







*Çünki...*

### BU TORPAQLARIN SAHİBLƏRİ BİZİK - AZƏRBAYCAN XALQIDIR

Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa edərək öz torpaqlarımıza sahib olduq. 1992-ci il may ayının 8-də erməni təcavüzkarları tərəfindən Şuşa işğal olunsa da 2020-ci il noyabrın 8-də - 28 ildən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu gün Müzəffər, Sarsılmaz, Şanlı Ordumuz, rəşadətli əsgər və zabitlərimizin gücü ilə 28 il həsrətində olduğumuz, Azərbaycanın ürəyi, mirvarisi, o cümlədən bütün Qafqazın mədəniyyət beşiyi olan Şuşa şəhərini düşmən işğalından azad etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Şəhidlər Xiyabanında xalqa etdiyi müraciəti isə bütün xalqımızın Qarabağ həsrətinə məlhəm oldu. Ali Baş Komandanın tarixi müraciətindən: "Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam".

*Və bu gün*

### QARŞIMIZDA QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN YENİDƏN QURULMASI KİMİ

### BÖYÜK ÇAĞIRIŞ DAYANIR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda keçirilən konfransda çıxışında bildirib ki, qarşımızda Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması kimi böyük çağırış və məsələ dayanır. Bizim heç bir ölkə, xüsusən də qonşu ölkə ilə hər hansı problemin olmasına ehtiyacımız yoxdur: "Lakin hər şey Laçın ilə Xankəndi arasında kameraları quraşdırdıqdan sonra baş verdi. Biz İran yük maşınlarının dövri olaraq Qarabağa hərəkət etdiyini ifşa etdik. Bu, tamamilə qanunsuz idi, çünki İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bu cür işlərlə məşğul olmalı deyildi".

Dövlətimizin başçısı əlavə edərək bildirib ki, Zəngəzur dəhlizinin, sadəcə, Azərbaycan və Ermənistan üçün deyil, qlobal səviyyədə əhəmiyyəti var: "Zəngəzur dəhlizinin böyük potensialı var. Çin, Qırğızıstan və Özbəkistan arasında dəmiryolu əlaqəsi yaradılır və Zəngəzur dəhlizi həmin marşrutun davamı, "Bir kəmər, bir yol" layihəsinin və ya Şimal-Cənub dəhlizinin tərkib hissəsi ola bilər".

Prezident İlham Əliyev qeyd edib ki, Zəngəzur dəhlizinin, sadəcə, Azərbaycan və Ermənistan üçün deyil, qlobal səviyyədə əhəmiyyəti var. Çünki biz daha böyük həcmdə yüklərin olmasını gözləyirik və marşrutlar nə qədər çox olsa, bir o qədər yaxşıdır.

Bəli, bu gün artıq Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər.

Dövlət başçımızın dediyi kimi: "Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik". Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***





# “Brüssel formatı" və erməni sindromu

Mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin iştirakı ilə Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında danışıqların növbəti raundu keçirilib. Danışıqların mövzusu Ermənistan-Azərbaycan dövlətlərarası münasibətləri və sülh müqaviləsidir. Yaranmış ənənəyə görə, Əliyevlə Paşinyanın Brüsseldə konkret nədən danışdıqları bu günlərin birində məlum olacaq. Şənbə günü axşam Şarl Mişel Nikol Paşinyanla, bazar günü səhər isə İlham Əliyevlə görüşüb. Bu ayrı-ayrı görüşlər zamanı, rəsmi açıqlamaya görə, Avropa Şurasının rəhbəri qonaqlarla regional vəziyyəti, o cümlədən Ermənistanın Basarkeçər bölgəsində sərhəddə vəziyyətin gərginləşməsini, həmçinin Qarabağ ətrafındakı vəziyyətlə bağlı məsələləri müzakirə edib.

İyunun 1-də İlham Əliyev və Paşinyanın Kişinyovda Avropa Siyasi Birliyinin sammiti çərçivəsində yenidən görüşəcəyi artıq məlumdur. Qərb mətbuatı xəbər verir ki, Moldova paytaxtında keçiriləcək danışıqlarda Almaniya kansleri Olaf Şolz və Fransa prezidenti Emmanuel Makron da iştirak edəcək. Amma Azərbaycan tərəfi fərqli format düşünür.

Nə Bakıda, nə də İrəvanda Brüssel görüşündən xüsusi müsbət gözləntilər yox idi. Azərbaycan tərəfi dəfələrlə bildirib ki, danışıqlarda Ermənistanın mövqeyi sülh müqaviləsi bağlamaq üçün yetərli deyil, real hazırlıq və istək nümayiş etdirmir. Azərbaycan ictimaiyyətində belə bir fikir hökm sürür ki, Ermənistan danışıqları imitasiya edərək, əslində revanşist planlar qurur və müharibə hazırlıqlarını davam etdirir və fürsət gözləyir. Bu barədə Cənubi Qafqaz politologiya klubunun rəhbəri İlqar Vəlizadə sosial şəbəkələrdə yazıb. Azərbaycan Milli Məclisinin deputatı, politoloq Rasim Musabəyov isə daha sərt danışıb. Onun fikrincə, Ermənistan 44 günlük müharibənin dərslərini həmişə xatırlamalıdır.

Brüsseldə keçirilmiş növbəti görüşdə Azərbaycan tərəfinin regionda sülh və sabitliyin təmin edilməsi ilə bağlı prinsipial mövqeyi bir daha tərəf-müqabillərin diqqətinə çatdırılıb. Bu barədə Azərbaycan XİN-dən bildirilib. Qeyd edilib ki, xüsusilə, dövlətlərin ərazi bütövlüyünə hörmətin bir daha təsbit edilməsi, bu kontekstdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün Ermənistan tərəfindən də qəbul edilməsi müstəsna əhəmiyyət kəsb edir.

”Avropa İttifaqı Şurasının Prezidentinin təşkilatçılığı ilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri arasında bu formatda 14 may tarixli sayca beşinci görüşü iki ölkə arasında normallaşma gündəliyinin irəlilədilməsi baxımından faydalı və nəticə yönümlü hesab edirik”. Bu fikirlər də Azərbaycan Xarici İşlər Nazirliyinə məxsusdur. Əlavə edilib ki, ilk növbədə müxtəlif müdaxilə və şərtləndirmə cəhdlərinə görə 9 aya yaxın müddətdə fasilə verilən ”Brüssel formatı”nda görüşün yenidən keçirilməsi tərəflər arasında ən yüksək səviyyədə dialoqun təşviqi baxımından əhəmiyyət kəsb edir. Görüş zamanı, Azərbaycan və Ermənistan arasında ikitərəfli sülh sazişi layihəsinin razılaşdırılması, sərhədlərin delimitasiyası və kommunikasiyaların bərpası istiqamətləri üzrə konkret nəticələrin əldə edilməsi məqsədilə ətraflı fikir mübadiləsi aparılıb.

Erməni politoloq Areq Koçinyan Azərbaycanın maksimalizmini danışıqlar prosesində əsas maneə adlandırır. ”Bakı müharibədəki qələbədən məst olub və hər şeyi bir anda əldə etmək istəyir. Belə bir xətt həll olunmamış məsələlərin - Qarabağın statusunun və oradakı ermənilərin təhlükəsizliyinin və hüquqlarının təminatlarının müzakirəsinə xələl gətirir”, - Koçinyan bildirib.

Onun həmkarı Tiqran Qriqoryan hesab edir ki, Ermənistanla Azərbaycan arasında ciddi fikir ayrılıqlarına görə qarşıdan gələn bütün danışıqlar çətin ki, konkret nəticə versin və yaxşı olardı ki, bütün bu yüksək səviyyəli görüşlər hansısa yolla tərəflərin mövqelərini yaxınlaşdırsın. Əsas problem Qarabağ və ”2021-ci ilin mayından Ermənistan ərazisində olan Azərbaycan qoşunları”dır. ”Ermənistan dövlət sərhədlərinin SSRİ-nin son illərinin xəritələrinə görə tanınmasını tələb edir. Azərbaycan öz şərtləri ilə delimitasiyada israrlıdır. Ola bilsin ki, vasitəçilər Bakının mövqeyini yumşalda bilsinlər. Amma düşünürəm ki, bu, mümkün deyil”, - Qriqoryan bildirib.

Brüssel danışıqları ərəfəsində Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov ”Rossiya 1” telekanalına müsahibəsində bildirib ki, Moskva iki il əvvəl Rusiya, Azərbaycan və Ermənistan tərəfindən imzalanmış üçtərəfli sazişlərə sadiqdir. ”Biz ondan çıxış edirik ki, onlar həll üçün mübahisəsiz əsasdır. Razılaşmaya nail olmaq üçün əldə edilmiş razılaşmaların həyata keçirilməsi yolu ilə getməliyik”, - Peskov bildirib. O, Rusiya ilə Ermənistan arasında münasibətlərin parlaq gələcəyinin olduğunu vurğulayıb: ”Onlar dərin, tarixi kökləri olan tərəfdaşlıq, xüsusi əlaqələr kimi inkişaf etməkdə davam edir”.

Xatırladaq ki, artıq mayın 19-da Moskvada Ermənistanın xarici işlər nazirləri Ararat Mirzoyan və Azərbaycanın xarici işlər nazirləri Ceyhun Bayramov arasında danışıqlar aparılacaq. Bakı ilə İrəvan arasında əsas ziddiyyətlər Qarabağa və sovet dövründə Ermənistandakı Azərbaycan anklavları olan səkkiz kəndə aiddir. Bakı rəsmi İrəvandan Qarabağın Azərbaycanın bir hissəsi kimi qeyd-şərtsiz tanınmasını tələb edir. Azərbaycan həm də Qarabağla bağlı bütün məsələləri təkbaşına həll etmək istəyir.

İrəvan da öz növbəsində israr edir ki, Bakı ilə ”Xankəndi” arasında dialoq beynəlxalq qurumların nəzarəti altında aparılsın. Azərbaycan tərəfinin regionda sülh və sabitliyin təmin edilməsi ilə bağlı prinsipial mövqeyi bir daha tərəf-müqabillərin diqqətinə çatdırılıb. Xüsusilə, dövlətlərin ərazi bütövlüyünə hörmətin bir daha təsbit edilməsi, bu kontekstdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün Ermənistan tərəfindən də qəbul edilməsi müstəsna əhəmiyyət kəsb edir.

Görüş həmçinin münaqişədən sonrakı normallaşma baxımından vacib olan humanitar məsələlərin müzakirəsi üçün bir fürsət təşkil edib. Bu kontekstdə, xüsusilə itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi və minasızlaşdırma sahələrində addımlar atılmasının sürətləndirilməsinin vacibliyi bir daha vurğulanıb.

Azərbaycan və Ermənistan arasında bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı tanınması və hörmət edilməsi əsasında münasibətlərin normallaşdırılmasının regionda davamlı sülh və sabitliyin təmini üçün yeganə yol olduğu bəyan edilib. Azərbaycan bu istiqamətdə münasibətlərin normallaşması üçün tərəqqi əldə edilməsinə dəstək verən səyləri alqışlayır, bu məqsədi güdən beynəlxalq tərəfdaşlarla dialoqu və qarşılıqlı fəaliyyəti davam etdirməyə hazır olduğu bir daha təsdiq edir.

”Mən, həmçinin liderləri oktyabrda Qranadada təşkil ediləcək 3-cü Avropa Siyasi Birliyi Zirvə Toplantısı çərçivəsində daha bir görüşə dəvət etmək niyyətindəyəm”, - Mişel deyib. Azərbaycan və Ermənistan tərəfləri isə görüşlərə razılıq verilib-verilməməsi barədə məlumat yaymayıb. Azərbaycan Xarici İşlər Nazirliyinin Brüssel görüşündən öncə yaydığı məlumatda bildirilib ki, Kişinyovda Avropa Siyasi Birliyinin növbəti iclası çərçivəsində Fransa Prezidenti və Almaniya Kanslerinin iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında görüş keçirilməsi təklif olunub. ”Azərbaycan tərəfi öz növbəsində, Brüssel formatını əvəz etməmək və bu formatı dəyişdirməmək şərtilə Kişinyovda qeyri-formal görüşdə Azərbaycan tərəfinin iştirakının mümkün olduğunu bildirib”, - XİN-in məlumatında bildirilib.

Brüsseldə keçirilən üçtərəfli görüşün Azərbaycanın tam diplomatik qələbəsi ilə başa çatdığını deyə bilərik. Ermənistanın baş naziri Nikol Paşinyan dəfələrlə bildirmişdi ki, Brüssel formatından imtina edir. Amma onun bu cəhdi uğursuzluqla nəticələndi və qalib tərəfin diktəsi ilə öz mövqeyindən geri çəkilərək Brüsselə getməyə məcbur oldu. Həmçinin Ermənistan keçiriləcək növbəti görüşdə Fransanın da iştirakını israrla tələb edirdi. Son görüş təsdiq etdi ki, Azərbaycan pozucu mövqe tutan, sülhə gedən yolu əngəlləməyə çalışan Fransanı masa arxasına buraxmadı, rəsmi Paris prosesi elə öz ölkəsindən izləməli oldu və niyyəti gözündə qaldı. Təbii ki, Fransanın məqsədi bəllidir, dəfələrlə sərgilədiyi yanaşmaları ilə münasibətləri gərginləşdirməyə çalışır. Elə hesab edir ki, dünyada güc sahibidir, Cənubi Qafqazda gedən proseslərə təsir imkanlarına malikdir. Amma unudur ki, Azərbaycan regionun lideridir, qalib ölkədir və aparılan danışıqlarda əsas söz sahibidir.

Paşinyan Brüsseldə keçirilən görüşdə birmənalı olaraq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdı. Bakı isə Qarabağın qarşılığında heç bir öhdəlik götürmədi. Bunu erməni siyasətçi Avetik Çələbyan deyib: ”Bu, Paşinyanın dövlət xadimi kimi total məğlubiyyətidir. Bunun isə təkcə Qarabağ yox, eləcə də Ermənistanın sərhəd bölgələri üçün nəticəsi olacaq. Bu, təkcə Qarabağın məhv edilməsinə yox, həmçinin Ermənistanın Azərbaycanla Türkiyə tərəfindən udulmasına gətirib çıxaracaq”. Çələbyan Paşinyanın Brüsseldəki bəyanatından dərhal imtina etməli olduğunu söyləyib.

Qarabağdakı separatçılardan biri David Babayan tərəfdarlarının fikirlərini ümumiləşdirərək Avropa Şurasının rəhbəri Şarl Mişelin bəyanatını biabırçılıq adlandırıb və Mişeli Çemberlenlə eyniləşdirib: ”Bunlar geosiyasi korrupsioner insanlardır. Mişel bizi konsentrasiya düşərgəsinə aparmaq istəyir? Mişel manevr otağını kəskin şəkildə azaldıb. İndi Ermənistandan və erməni xalqından cavab almalıyıq. Avropa 2020-ci ildə baş verənləri qanuniləşdirdi, Laçın yolundan keçid məntəqəsinin quraşdırılmasına haqq qazandırdı. Bununla da o, 2020-ci ildə baş verənlərdə əli olduğunu göstərdi. Bu avropalı müşahidəçilər haradadır?”.

Bəli, Ermənistan və ermənilər heç nədən razı deyillər. Düşünürlər ki, 30 ildə etdikləri-ni, Azərbaycan torpaqlarını işğal altında saxladıqlarını dünya birliyi, xüsusən də azərbaycanlılar unudub və meydanı onların əsassız iddialarına haqq qazandıranlara buraxacaqlar. Zaman dəyişib, dünyanın boşluqları artıq dolub, istənilən bir hərəkət bumeranq effekti verir. Bu gün başqa ölkənin işğalına göz yumsan sabah sənin torpaqlarını işğal edəcəklər. Dünya birliyinin ən çox qorxduğu presedent effektidir.

***V.VƏLİYEV***

# Qərbi Azərbaycan: Doğma torpaqlara qayıdış!

## “Vətən insanın ürəyində dəyişməyən bir sevgidir”

Qərbi Azərbaycanlı əməkdar mədəniyyət işçisi, Televiziya və Radio Akademiyasının rektoru, şairə, publisist, nasir Telli Pənahqızının SİA-ya müsahibəsini təqdim edirik:

***- Telli xanım, ilk növbədə dədə-baba yurdunuzdan danışmağınızı istərdim. Qərbi Azərbaycan yaddaşınızda necə qalıb?***

- Hər bir insanın doğulub, böyüdüyü yurd yeri onun yaddaşında əbədi həkk olunur. Mən Vedibasarda doğulmuşam. Bizim rayonumuz Qərbi Azərbaycanın çox axarlı-baxarlı, gözəl bir guşəsi idi. Ümumilikdə, Qərbi Azərbaycan Allahın və təbiətin verdiyi nemətlərlə zəngin bir bölgə idi. Bəlkə də elə ona görə bizim murdar qonşularımız o yerləri qarmalamağa cəhd etdilər. Təbii ki, o yerdə mənim uşaqlıq illərim, xatirələrim, atalı-analı günlərim, dostlarım qalıb. Bütövlükdə Vedi deyəndə həmişə gözümün qabağında bir xəritə cızıram, hansı ki, məktəbə getdiyim cığırlar, yaylağa getdiyimiz çətin və mürəkkəb yolların əks olunduğu yerlər. Mənə elə gəlir ki, hər bir insan doğulduğu yurda bağlıdır. Möcüzəvi şəhərin göbəyində yaşayan birindən soruşsalar belə sənin üçün ən əsrarəngiz guşə haradır deyə, həmin insan mənim öz doğma yurdum deyər. Vətən insanın ürəyində dəyişməyən bir sevgidir. Uzaq düşəndə isə o sevgi ağrıya çevrilir.

***- Doğma yurdunuzla bağlı yaddaşınızdan silinməyən, hələ də təsirindən çıxa bilmədiyiniz bir xatirəniz varmı?***

- Əslində, çox belə xatirəm var. Mənim gəzib-gördüyüm hər yerdən fərqli olaraq bizim məhəllədəki evlərin hamısı sanki yallı gedirmiş kimi bir-birinə söykənmiş idi. İki darvazanın bir divarı var idi. Bu da insanlar arasındakı münasibəti, doğmalığı qoruyub saxlamağa kömək olurdu. Məsələn, bizdə heç vaxt qapılar bağlanmazdı. İstər həyət qapısı olsun, istərsə də evin qapısı. Ancaq gecədən-gecəyə həyətə it-pişik girməsin deyə qapıya bir qarmaq atardılar. Mən Bakıya gəldikdən sonra uzun müddət bu xasiyyətimdən əl çəkə bilmədim. Hətta qonşularımız mənə deyirdilər ki, bura Bakıdır, evə gələndən sonra qapını bağlı saxla.

Düzü, Vedidə bitən ağaclar heç yerdə yoxdur. Orada bitən meyvələrin ətrini başqa heç yanda duya bilməmişəm. Özünəməxsus bir gözəlliyi var idi. İnsanlarının başqa bir özəlliyi var idi. Bəlkə də bir-birləri ilə qohum deyildilər, amma hamı xoş-acı gündə də bir-birinin yanında olurdu. Uşaqlar özləri üçün oyunlar tapırdılar. Qızlar ”beşdaş”, ”qırxdaş”, ”ip atlama” kimi oyunlar oynayırdılar. Yəni, hər kəs öz dünyasını yaratmağı bacarırdı. Təbii ki, bunların hər biri unudulmaz xatirədir. Amma təəssüf ki, uzun illərdir biz o yerlərdən uzaq düşmüşük. Yenə də əminəm ki, bu köç mütləq geri dönəcək. Çünki bizim olanı bizə qaytarmaq lazımdır. Cənab Prezidentimiz sağolsun ki, son 200 ildə Azərbaycan torpaqlarından kəsilən qalıqları birləşdirməyə çalışır.

***- Qərbi Azərbaycan adət-ənənələri haqqında nə deyə bilərsiniz? Hansı adət-ənənələr var idi? Oradakı bu adətlərin digər bölgələrdəkindən fərqi nə idi?***

- Mən desəm ki, Vedibasarla Zəngibasarın adət-ənənələrində böyük fərq var, bu yalan olar. Çünki əslində, o qədər də böyük bir ərazi deyildi və adət-ənənələrdə də yaxınlıq var idi. Amma göyçəlilər daha çox saza-sözə bağlıdır. Göyçə camaatının sazla, sözlə, dastanla əlaqəsi daha çoxdur, çünki onların Aşıq Ələsgər kimi bir ustadı olub. Daha çox Naxçıvan ərazisinə yaxın olduğum üçün bəlkə də Xıdır Nəbi bayramı, Novruz bayramı, baharın gəlişinin xüsusi təmtəraqla qeyd olunması və s. kimi adət-ənənələrimizin bir çoxu oradan bizə keçib. Bahar gələndə xüsusi bayram təmizliyi edirdik, Novruz bayramında buğda qovururduq və s.

Vedi camaatının qoçaqlığı, qəhrəmanlığı öz yerində, xüsusilə qadınları çox səbrli, ədəb-ərkanlı, geyimini, danışığını bilən, gözəl danışmağı bacaran idilər. Mən Bakıya gələndə hamı mənə deyirdi ki, sən niyə belə ədəbi dildə danışırsan. Deyirdim, bizim evimizdə hamı belə danışır. Yəni, o ədəbi dilin normalarını biz qoruyub saxlayırdıq. Çünki biz kitab oxuyurduq. Vedidə elə bir ailə tapılmazdı ki, onun evində balaca da olsa, kitab şkafı olmasın. Mən 4-5-ci siniflərdə oxuyanda dastanlar oxuyurdum və camaat da mənə qulaq asırdı. Yəni, elmi, savadı gənc nəslə aşılamaq Vedidə bir ənənə idi.

Rayonumuzun özünəməxsus toy, nişan gəlin görmə adətləri var idi. Bu adətlərdə də bir kollektivçilik özünü göstərirdi. Məsələn, gəlin görməyə gedirdilərsə, qonşu səndən qabaq hazır olardı.

***- Bildiyiniz kimi, artıq o adət-ənənələr bir qədər unudulub. Bəs, onları yaşatmaq üçün nə etməliyik?***

- Bu telefonlar çıxandan insanlar bir-birini yadırğadılar. Qonaq getmək unudulur. Hətta qonaq gedilsə belə hər kəsin əlində telefon olur, heç kim bir-biri ilə maraqlanmır. Dövran dəyişib və elə bir zaman yetişib ki, heç kim digərinin ərizəsini oxumur. İndi o adət-ənənələrə əməl edənlərə də qəribə yanaşırlar. Amma əgər insanları yaşadan torpaqdırsa, o torpağı yaşadan da onun insanlarıdır. Adət-ənənəsi ilə, onlardan doğan musiqisi, rəqsi, xəzinəsi ilə torpaq yaşayır. Bugünkü gündə ermənilər bizim olanı məharətlə öz adlarına keçirməklərinə adam məəttəl qalır ki, bu qədər həyasızlıq olar. Amma təəssüf ki, dünya bir xaça bağlıdır. Bir xaç bütün insanların, xüsusilə də müsəlmanların taleyini həll etməyə qadir olduğunu düşünür. Ona görə gənclərimiz daha çox oxumalı, məlumatlı olmalıdır. Mən həmişə xaricdə yaşayan soydaşlarımıza da deyirəm ki, siz Azərbaycanı, onun daxilində Qərbi Azərbaycanı təbliğ edin. Nə qədər torpaqlarımızı itirə-itirə bu vəziyyətə gəlib çatmışıq. Çünki biz təbliğat işini kifayət qədər apara bilmirik. Yenə də nə yaxşı ki, Ümummilli Liderimizdən sonra cənab Prezident İlham Əliyev cəsarətlə o yerlərin Azərbaycan torpaqları olduğunu və bizim ora qayıdacağımızı vurğulayır. Bu baxımdan gənclərin üzərinə böyük məsuliyyət düşür. Təkcə yazmaqla deyil, eyni zamanda xaricdə yaşayan insanlara dönə-dönə başa salmaq lazımdır ki, bu adət-ənənələr, torpaqlar bizimdir. Ermənistan yaxşı təbliğ etdiyinə görə dünyanı inandıra bilir. Amma bizimkilər filankəs nə deyər deyə düşünür. Heç nə deməyəcəklər. Əksinə insanlara xoş gəlir ki, biz öz adət-ənənələrimizə sahib çıxırıq.

***- Məlumdur ki, Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasında da fəaliyyət göstərirsiniz. Bəs, İcmanın fəaliyyətində, eyni zamanda Qərbi Azərbaycana qayıdış prosesində qadınların rolunu necə dəyərləndirirsiniz?***

- Düşünürəm ki, ilk növbədə qadınlardan başlamaq lazımdır. Çünki qadınlar anadır, evin sahibidir və hər zaman ərləri ilə yanaşı bir sırada düşmənə qarşı mübarizə aparıblar. Qadınların böyük qüvvəsindən istifadə etmək lazımdır. Qadın tərbiyəçi, yol göstərəndir. Kişilər inciməsin, amma ən güclü kişinin də arxasında bir qüdrətli qadın dayanır. Bu qadınlar özünü elə tərbiyə etməlidir ki, onlara yurd sevgisi təkcə ana südü ilə deyil, eyni zamanda nəvazişi, nağılları, nəsihəti ilə hopsun canına. Artıq üzü yaya doğru gedirik. Bölgələrimizə səfərlərimiz olacaq. Həmin bölgələrdə də Qadınlar Şurasının artıq dayaq nöqtələri mövcuddur. Onlarla da iş aparmaq lazım gələcək. Əminəm ki, qadınlarımız bu prosesdə çox fəal iştirak edəcək.

***- Telli xanım, yaradıcılığınızda da Qərbi Azərbaycana yer ayırmısınız. Həmin əsərləri arxivə gətirəndə hansı hissləri yaşamısınız?***

- ”Ayrılıqdan sonra çəkilmiş şəkillər” adlı kitabım Vedibasar mahalının tanınmış insanlarına həsr olunub. Mən bu kitabı hazırlayanda Musa adında rəhmətlik müəllimim bəzi məsələlərdə mənə kömək etdi. Vedibasardan olan tanınmış adamlarını axtardı-aradı, bəziləri haqqında məlumat tapdı, bəziləri ilə məni görüşdürdü. Lakin mən kitabı bitirəndə artıq onun ömrü yetmədi. Mən onu həmişə çox böyük minnətdarlıq hissi ilə yad edirəm. Həmin dönəmdə mən insanlarımızı tanıdım. Başa düşdüm ki, bizim insanlar harada olmasından asılı olmayaraq ürəklərində vətən sevgisini daşıyırlar. Çox sevindim ki, onların içində kifayət qədər tanınmış insanlar var.






Azərbaycanın qadın şairləri içində bəlkə də ən çox yurda şeir həsr edən mənəm. Çox qəribədir ki, onların içində bilavasitə Vedinin adı ilə bağlı şeirlər də var. Mən də yanğımı bu cür söndürürəm. Düşünürəm ki, nə vaxtsa o qapını birdə açacam.

***- Bilirik ki, doğum gününüz yaxınlaşır. İndidən sizi təbrik edir, həyatınızda və fəaliyyətinizdə uğurlar arzu edirik. Son olaraq yeni yaşınızda arzularınızı eşitmək istərdik.***

- Ən böyük arzum odur ki, gələn il mayın 24-də Qərbi Azərbaycana gedə bilək. Bəlkə də bizim üçün orada yaşamaq tez olacaq. Çünki ermənilər bizim torpaqlarımızı işğal edib, evlərimizi dağıdıblar. Cənab Prezidentin dediyi kimi, ləyaqətli şəkildə biz torpaqlarımıza qayıtmaq istəyirik. Əminəm ki, qayıdacağıq. Yenidən evlərimizi tikəcək, binalarımızı salacağıq. Allah qismət etsin ki, o günləri hamımız görək və orada açılan qapılardan biri də mənim olsun.

***- Telli xanım, bu gərgin iş şəraitində bizə vaxt ayırdığınız üçün təşəkkür edirik.***

- Siz sağolun. Minnətdaram.

***Ləman Əlizadə***

# “Görüş Azərbaycan diplomatiyasının uğurudur”

## POLİTOLOQ ŞƏRH ETDİ



“Dünən Brüssel görüşünün formatına, eyni zamanda danışıqlar zamanı tərəflərin əldə etdiyi nəticələrə nəzər yetirdikdə bir neçə aspektdən Azərbaycanın müəyyən uğurlar və dividentlər əldə etdiyi qənaətindəyəm. Bu cür üçlü formatda görüş sonuncu dəfə 2022-ci ilin avqust ayında keçirilmişdi. Hətta o görüşdən sonra həm Ermənistan tərəfindən, həm də Azərbaycan tərəfindən sülhə doğru müəyyən ümidverici bəyanatlar səsləndirilirdi ki, Avropa İttifaqının təşəbbüsü ilə artıq regiona sülh gətiriləcək. Eyni zamanda, həmin görüşdə o da qeydə alınmışdı ki, sülh prosesinin tezləşdirilməsi üçün bu cür görüşlər teztez keçirilməlidir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elçin Abdullayev deyib.

Onun sözlərinə görə, tərəflər müəyyən razılaşmalar əldə etməlidir: ”Ermənistanın Baş Naziri Nikol Paşinyan isə üçlü formata dördüncü bir tərəfi, yəni Fransanı da əlavə etmək istədi. Amma Azərbaycan Prezidenti İlham Əliyev buna qəti şəkildə etriazını bildirdi. O, Emmanuel Makron növbəti Brüssel görüşünə qatılacağı təqdirdə özünün iştirak etməyəcəyini də qeyd etdi. Azərbaycanın haqlı etirazı nəticəsində avqust ayından dünənki tarixə qədər üçlü görüş baş tutmadı. Nəhayət, dünən Fransanın iştirakı olmadan belə bir görüş keçirildi. Mənə görə bu, Azərbaycan diplomatiyasının və Prezidentinin uğuru kimi qəbul olunmalıdır. Bildiyiniz kimi, bir müddət əvvəl Azərbaycan tərəfi Laçın yolunda nəzarət-buraxılış məntəqəsi quraşdırdı”.

Politoloq sözlərinə davam edərək bildirib ki, bundan sonra Ermənistan və ona havadarlıq edən dövlətlər Azərbaycana qarşı müəyyən bəyanatlar səsləndirməyə başladılar: ”Azərbaycandan öz suveren ərazisində quraşdırdığı bu məntəqəni aradan qaldırmasını istədilər. Amma rəsmi Bakı bu məsələdə də öz qətiyyətli mövqeyini ortaya qoydu. Diqqətimi cəlb edən məqamlardan biri də bu idi ki, dünənki görüşdə məhz Laçında quraşdırılmış nəzarət-buraxılış məntəqəsi müzakirə olunmadı. Bu da ondan xəbər verir ki, artıq həm Ermənitsan, həm də Avropa Birliyi Azərbaycanın öz suveren hüququndan istifadə edərək atdığı bu addımı qəbullanmaq məcburiyyətində qalıb.

Dünən baş tutan görüşdən sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel jurnalistlərə açıqlamasında bildirdi ki, tərəflər artıq 1991-ci ildə qəbul olunmuş Alma-Ata bəyannaməsi ilə razılaşıb. Həmin bəyannamədə hər iki dövlətin ərazi bütövlüyü tam olaraq göstərilir. Bugünkü gündə Ermənistan Azərbaycanın 1991-ci ildəki ərazi bütövlüyünü qəbul edirsə, bu o deməkdir ki, həm rəsmi İrəvan, həm Brüssel, həm də digər beynəlxalq təşkilatlar dövlətimizin sərhədlərini tanıyırlar. Əgər Qarabağı Azərbaycan ərazisi olaraq tanıyırlarsa, deməli oradakı ermənilər də Azərbaycan vətəndaşları olaraq qəbul edirlər. Bu da bir nailiyyətdir”.

**Ləman Əlizadə**

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər







“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il mayın 12-də YAP Kəlbəcər rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Gəncə şəhərində yerləşən Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyularaq əziz xatirəsi ehtiramla yad edilib.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda partiya sıralarına yeni qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri və fəal gənclərə fəxri fərmanlar təqdim olunub.




# Professor Sakit Hüseynovun kitabı nəşr olunub

AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun ”Davamlı inkişafın fəlsəfəsi və sosiologiyası” şöbəsinin müdiri fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynovun ”Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu” adlı kitabı (Fəlsəfə və Sosiologiya İnstitutunun Elmi Şurasının 27.09.2022-ci il tarixli 05 saylı qərarı) (Bakı, ”Tuna” QSC mətbəəsi, Keşlə qəs.,1-ci Önünə küç., 19) (277 səh) nəşr olunub. SİA xəbər verir ki, kitab Heydər Əliyevin anadan olmasının 100 illiyinə və İlham Əliyevin hakimiyyətə gəlməsinin 20 illiyinə həsr olunmuşdur. Bu kitab Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən ”Mənəvi Dəyərlərin Təbliği Fondu”nun maliyyə dəstəyi ilə nəşr olunmuşdur.

Kitab müstəqillik dövründə Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin dövlət-din siyasətinin fəlsəfi-sosioloji cəhətdən araşdırılmasına həsr edilmişdir. Kitabda İslamın Qafqazda yayılmasında Azərbaycanın rolu, dövlət-din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığının bərqərar olunması, dini tolerantlıq, dini ekstremizm və dini təhlükəsizlik haqqında Heydər Əliyev və Prezident İlham Əliyevin fəaliyyəti ilk dəfə olaraq geniş şəkildə araşdırılmışdır. Bununla yanaşı, Heydər Əliyevin ”İslam birliyi” ideyası və Prezident İlham Əliyevin müsəlman ölkələrinə ”İslam həmrəyliyi” çağırışı dövlət-din siyasətində yeni istiqamət kimi elmi cəhətdən mühüm aktuallıq kəsb etməkdədir.

Son illərdə İslam dini, İslam sivilizasiyası haqqında yeni-yeni tədqiqat əsərlərinin sayı çoxalmış, bu sahədə keçirilən beynəlxalq konfrans və simpoziumların coğrafiyası genişlənmişdir. Xüsusən, İslam mədəniyyətinə diqqətin artması ABŞ-də baş verən 2001-ci il 11 sentyabr hadisəsindən sonra daha çox əhəmiyyət kəsb etməyə başlamışdır. Araşdırmalar göstərir ki, son illərdə, xüsusən, İslamın tarixi mahiyyəti, dünya mədəniyyət tarixində İslamın oynadığı rol, onun bəşər sivilizasiyasına verdiyi töhfələr beynəlxalq miqyasda keçirilən elmi konfransların və simpoziumların müzakirə obyektinə çevrilmişdir.

Müasir dünyada beynəlxalq münasibətlər çərçivəsində baş verən hadisələr bir daha sübut edir ki, din yalnız inanc və mənəviyyat məsələsi deyil, eyni zamanda ictimai-siyasi hadisələrin tənzimlənməsində, ölkələrarası əlaqələrin qurulmasında müstəsna rol oynayır. Bununla yanaşı, sekulyar dövlətlərdə dinin funksiyası və yeri, həmçinin qloballaşmanın genişləndiyi bir dövrdə dövlət və din arasında münasibətlərin müəyyən edilməsi ən aktual problemlərdən birinə çevrilmişdir. Digər bir problem isə qloballaşma prosesində dövlətçiliyin və cəmiyyətin inkişafına xidmət edəcək formada milli adət-ənənələrin və dini dəyərlərin mühafizəsi məsələsidir. Bu baxımdan, prof. Sakit Hüseynovun ərsəyə gətirdiyi ”Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu” adlı əsəri Ulu öndər Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi, eləcə də dini dəyərlərin qorunması və təbliği, multikulturalizm, tolerantlıq və dinlərarası dialoqun təşviq edilməsi sahəsində nəzəri və praktiki səciyyə daşıyan zəngin irsininin araşdırılmasını əhatə edir.

Kitabda Azərbaycanda İslam dəyərlərinə özünəməxsus qayıdış, İslam dinindən irəli gələn əxlaqi, humanist dəyərlərin müasir demokratik, hüquqi, dünyəvi, mütərəqqi inkişaf meyarları ilə uzlaşması milli-dünyəvi dəyərlərin tərəqqisi, cəmiyyətdə inanc hisslərinin möhkəmlənməsi baxımından müstəsna rol oynayır. Çünki, illər keçdikcə xüsusi ilə də gənclərimiz öz dəyərlərilə daha yaxından tanış olur, onlara daha dərindən yiyələnir və mənimsəyirlər. Gənc nəslin əldə etdikləri bu dəyərlərin tarixi keçmişi, sonrakı dəyişiklikləri və bugünkü əhəmiyyətini bilmək olduqca vacibdir.

Bu gün Azərbaycandakı mövcud dini-etnik dözümlülük, dini tolerantlıq müxtəlif mədəniyyətlər arasındakı sivil dialoq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də təqdir olunmaqdadır. Xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq dövlət siyasətinin mühüm tərkib hissəsidir. Milli mədəniyyətin və dini dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasət də dövrün reallıqları ilə uyğunlaşır.

Kitabın əsas diqqətə aldığı mövzu isə dövlət və din münasibətlərinin tənzimlənməsində Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rolu, habelə bu istiqamətdəki səmərəli fəaliyyətləri və müstəqilliyimizin möhkəmlənməsində göstərdikləri xidmətləridir. Tədqiqatın metodoloji əsasını sistemli yanaşma, tarixilik, müqayisəli-komprativistik təhlil təşkil edir. Araşdırma zamanı kifayət qədər mötəbər mənbə və normativ hüquqi sənədlərdən istifadə edilmiş, dəlil-sübutların qarşılıqlı əlaqəsi və müqayisəli təhlili əsas götürülmüşdür. Bu tədqiqatda əldə olunan nəticələr Azərbaycandakı dövlət-din münasibətlərində nəzəri bilikləri və dövlət-din siyasətində əməli fəaliyyəti genişləndirməyə imkan verir.

Kitabın elmi redaktoru Fəlsəfə və Sosiologiya İnstitutunun baş direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə, elmi məsləhətçisi AMEA-nın vitse-prezidenti v.i.e, akademik Gövhər Baxşəliyeva, rəyçiləri AMEA-nın müxbir üzvü Könül Bünyadzadə, tarix elmləri doktoru, dosent Eynulla Mədətli, fəlsəfə elmləri doktoru, professor Azər Mustafayev, fəlsəfə elmləri doktoru, Az.TU-nun professor Eyyub Kərimov, hüquq elmləri doktoru, BDU-nun prof. Etibar Əliyev, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Aqil Şirinovdur.

Bu kitab tələbə və doktorantlar, ilahiyyatçılar, dinşünaslar, orta və ali məktəb müəllimləri, eyni zamanda geniş oxucu kütlələri üçün maraqlı və faydalı olacaqdır.

# Türkiyənin ikinci tur sınağı

**Türkiyə mayın 14-də prezident və parlament seçkilərinə getdi. Ölkənin Yüksək Seçim Kurulunun sədri Əhməd Yener seçkinin nəticələri ilə bağlı son məlumatları çatdıraraq seçki prosesində çətin dövr keçirən idarə heyətinin üzvlərinə, seçki şura sədrlərinə, seçki personalına, seçki qutularında iştirak edən dövlət məmurlarına, bu prosesdə səbirsizliklə nəticə gözləyən Türk millətinə təşəkkür edib.**

Mayın 15-i, saat 15:15-ə olan məlumata görə, yerli seçki qutularının sayı 100 faizlə açılıb, iştirak faizi isə 88,92 olub. Xaricdə iştirak nisbəti 52,69 faiz olub. Hazırda xaricdə məlumat girişi davam edən 35 min 87 səs var. Hazırda qeyri-müəyyən olan müvəqqəti nəticələrə görə, cənab Rəcəb Tayyib Ərdoğan 49,51 faiz, Kamal Kılıçdaroğlu 44,88 faiz, cənab Sinan Oğan 5,17 faiz və Məhərrəm İncə yüzdə 0,44 səs toplayıb. 15:15-ə kimi hələ də sistemə daxil olan 35 min 874 səsin hamısının ilk 2 namizədimizdən biri olan cənab Rəcəb Tayyib Ərdoğana verildiyini qəbul etsək, Rəcəb Tayyib Ərdoğan yüzdə 49,54, əgər hamısı 35 min 874 səsdir. Kılıçdaroğluna səslərin yüzdə 44,85-i verildi. Beləliklə, heç bir namizədin seçilmə hüququ qazana bilməyəcəyi təyin olundu. Seçkilərin ikinci turunun bazar günü, 28 may 2023-cü il tarixində keçirilməsi qərara alınıb.

Elan edilmiş seçki təqviminin saat 17:00-dan saat 20:00-a kimi ləğv edilməsi qərara alınıb ki, müvəqqəti namizəd əvəzi, yeni son 2 namizəddən biri namizədlikdən geri çəkilsin və növbəti namizəd müraciət edə bilsin. Səsvermə bülletenlərindəki sıralamada heç bir dəyişiklik yoxdur və belə bir qərar da var ki, əvvəlki namizəd yarışa davam etməyəcəyi təqdirdə reytinqdəki namizədlər əvvəlki namizədi əvəz edəcəklər. Birinci yerdə cənab Rəcəb Tayyib Ərdoğan, ikinci yerdə isə cənab Kamal Kılıçdaroğlu olacaq. Yekun nəticələr 19 may 2023-cü il, cümə günü elan ediləcək. Xaricdə səsvermə prosedurları elan edildikdən sonra başlayacaq və 24 may 2023-cü il çərşənbə günü başlayan səsvermə prosesi ilk dəfə xaricdə bu şəkildə ikinci tur səsvermə ilə başlayacaq. Ölkədə bazar günü, mayın 28-də baş tutacaq.

Səsvermənin birinci turunda olduğu kimi bu dövrdə də prezidentliyə namizədlər radio və televiziya üçün püşkatma atacaqlar. Seçkiqabağı sorğunun nəticələrini açıqlayan ictimai rəyi öyrənən şirkətlərin əksəriyyəti proqnozlarında səhv olsa da, SONAR Araşdırmanın seçki proqnozu diqqət çəkib.

Anadolu Agentliyinin saat 00:30 etibarilə açıqladığı qeyri-rəsmi nəticələrə görə, dünən keçirilən Prezident və 28-ci dövr parlament seçkilərində "Xalq Birliyi"nin prezidentliyə namizədi Rəcəb Tayyib Ərdoğan 49,6%, "Millət İttifaqı"nın prezidentliyə namizədi Kamal Kılıçdaroğlu 44,6%, ATA İttifaqının namizədi Sinan Oğan isə 5,2% səs alıb. Parlament seçkilərində səsvermə nisbəti "Xalq Birliyi" üçün 49,8 faiz, "Millət Birliyi" üçün 34,9 faiz, Əmək və Azadlıq Birliyi üçün isə 10 faiz olub. İctimai rəyi araşdıran şirkətlərin seçki öncəsi son günlərdə dərc etdiyi sorğu nəticələri də gündəmdədir.




İctimai rəyi araşdıran şirkətlərin əksəriyyəti proqnozlarında yanıldığı halda, ictimai rəy araşdırmaçısı Hakan Bayrakçının seçkilərə günlər qalmış açıqladığı məlumatlar gündəmə gəlib. SONAR Araşdırmasının məlumatlarına istinadən Bayrakçı prezidentlik yarışında Rəcəb Tayyib Ərdoğana 48,8 faiz, Kamal

Kılıçdaroğluna 44,1 faiz, Sinan Oğana isə 3,5 faiz səs proqnozlaşdırmışdı.

Ortada olan vəziyyət budur ki, Kılıçdaroğlu iddia etdiyi kimi irəlidə deyil, 5 xal geridə qaldı. Hətta CHP-nin maliyyələşdirdiyi ANKA Agentliyinin məlumatlarına görə, Kılıçdaroğlu 4 bal geridə olmalı idi. Ona görə də yaxşı olar ki, "qabaqdayıq" deyərək özlərini gülünc göstərməsinlər. Bundan başqa, AK Partiya manipulyasiya etsəydi, prezident Ərdoğanı heç vaxt 50 faizdən aşağı göstərməzdi.

Amma təbii ki, Kılıçdaroğlunun ikinci turda da işi çətindir. Çünki öz elektoratını ələ salıb. Kılıçdaroğlunu maliyyələşdirən anket şirkətləri hər zaman onu önə çıxarıb. Hətta onu yüzdə 60-a yüksəldənlər də olmuşdu. Mövcud vəziyyətdə daha bir aydın fakt ondan ibarət idi ki, "Xalq Alyansı" Məclisdə böyük səs çoxluğu qazandı. AK Partiyanın 267, MHP-nin isə 51 deputatı var idi. CHP 169 deputatda, İyi Partiya isə 44 deputatda qalıb. Bundan başqa, MHP anket şirkətlərinə qarşı ən böyük qolu vuran partiya kimi parlament hesabında üçüncü sıraya yüksəlib. Ona görə də qanunverici orqanda çəki "Xalq Alyansı"nın üzərindədir.

Nəticədə prezident seçkilərində xarici səslərdən asılı vəziyyət yaranmışdı və yekun nəticəni birlikdə görəndən sonra ikinci tur ehtimalının gerçək olduğuna inandıq. Təxminlərə belə idi ki, xarici səslər Ərdoğana +0,6 yazacaqdı və bu baş versə idi, birinci turun bitmə ehtimalı vardı. Bununla belə, ikinci tura keçmək ehtimalı da var. Nəticə nə olursa olsun, "Xalq Alyansı"nın qələbəsi mütləqdir. Türk millətinə uğurlar.

***V.VƏLİYEV***





# AİLƏ: "Mən"dən "biz"ə keçid

***Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası 1993-cü il sentyabrın 20-də qəbul etdiyi qərarla 15 may tarixini "Beynəlxalq Ailə Günü" elan etdikdən sonra bu tarix 1994-cü ildən bütün dünyada qeyd olunur. 15-21 may aralığı isə "Ailə həftəsi" kimi qəbul edilib. Ailənin qorunması və möhkəmləndirilməsi məqsədilə təsis edilən bu həftə çərçivəsində cəmiyyətin bütün təbəqələrinin ailə haqqında maarifləndirilməsi, ailəyə dəstək fəaliyyətlərinin təşviq edilməsi, ailələrdə tərəflərin sosial məsuliyyətlərini yerinə yetirməsinə köməklik göstərilməsi, habelə ailələrə sosial, psixoloji yardımın göstərilməsi həyata keçirilir.***



## İnsan ailəsinə, ailə cəmiyyətə adaptasiya olur

Sürətlə dəyişən dünyamızda insanın yaxşı və ya pis yaşaması onun ən yaxın mühiti ilə münasibətindən asılıdır. İnsanın ən yaxın mühiti onun evi və ailəsidir. Əgər bu dünyaya gəlmişiksə bütün insanlar fərd və ya ailə olaraq daim dəyişən bu dünyaya uyğunlaşmalıdırlar. Dünyada baş verən bütün yeniliklər və dəyişikliklər ailələrdən yan keçmir.

Sosial-iqtisadi strukturda baş verən dəyişikliklər bilavasitə və dolayısı ilə ailəyə də təsir göstərir, onu müəyyən dəyişkliyə məruz qoyur. Sosial-maddi çətinliklər olarsa boşanma, əxlaqi-mənəvi problemlər olarsa xəyanət halları da məhz kənar təsirlərin gücü ilə yaranır. Ona görə də ailə məsələsi müzakirə olunarkən, baş verənləri araşdırmaq, probleme onların fonunda lazımdır. Ailənin yaşadığı cəmiyyətdə baş verən dəyişikliklər də ailəyə mütləq təsir vasitəsidir.

Ailə insanın ən dərin tərbiyəvi təsirlər aldığı, çox şeylər öyrəndiyi, həyata hazırlaşdığı bir məktəbdir. Ailə dünyaya məsum və neytral xarakterlə gələn uşağın həm fərdi, həm də sosial-mədəni status qazandığı bir məkandır. Uşağın şəxsiyyəti bir növ ailə tərbiyəsidir. Övladlarının şəxsiyyətini verdikləri tərbiyə ilə inşa edən ailələr bununla həm də mənsub olduqları millətin şəxsiyyətini və taleyini inşa etmiş olurlar. Bu səbəbdən ailə tərbiyəsinin istiqaməti böyük məsuliyyət deməkdir. Ailə olduqda artıq "mən" yerinə "biz" deməyə başlayırıq, "mənim" olan şeylər "bizim" olur, bütövlük olur. Ailələrimiz bizi öz ailəmizə hazırlayanda bunu aşılayırlar.





## Möhkəm ailə = güclü dövlət

Ailə valideynlər və uşaqlardan ibarət ən kiçik sosial quruluşlu müəssisədir. Ailə cəmiyyəti təşkil edən institutların əsasını təşkil edir. Sosiallaşma zamanı insan üçün sosial həyat nə qədər vacib və zəruridirsə, sosial bir cəmiyyətin özəyini təşkil edən ailə institutu da bir cəmiyyət üçün bir o qədər önəmlidir. Bu mənada ailənin möhkəmlənməsi üçün atılacaq hər bir addım böyük əhəmiyyət kəsb edir. Çünki güclü ailə quruluşu ilə güclü cəmiyyət arasındakı bağ bir-biri ilə düz mütənasibdir.

Milli ailənin ən mühüm rolu nəslin davamını təmin etmək, onların daha yaxşı tərbiyəsini həyata keçirmək, sosial yükünü paylaşmaq, mənəvi dəyərlərini yaşatmaqdır. Lakin ailənin sadaladığımız bu fəaliyyətinin davam etdirilməsi tərəflərin ahəngdarlığından, uyumundan da asılıdır. Emosional, sosial, maddi, mənəvi və əxlaqi şərtləri yerinə yetirməklə ideal bir ailə qurmaq olar. Əksi süqut olacaq.

Gənclər evlənmək və birlikdə bir ailə qurmaq qərarına gəlməzdən əvvəl fərd olmaq üçün yetkinliyə çatmalı və ailə asılılığından qurtulmalıdırlar. Bunu bacarmayan biri üçün yeni ailə qurmaq məsuliyyəti ağır ola bilər. Son illərdə qadınlara qarşı zorakılıq, erkən nikahlar və boşanma nisbətlərinin yüksələn şkala üzrə dəyişməsi dərhal müdaxilə tələb edən aktual məsələlərdən bəlkə də ən birincisidir. Ailə qurmağa tələsən, hələ sərbəst qərar verə bilməyən, fərd olaraq formalaşmayan insanların qurduğu ailələrin özülü də möhkəm olmur. Axı ailə kiçik dövlətdir, təməlində laxlama oldusa, bu, cəmiyyəti təhlükə altına qoyacaq.



## Azərbaycanda ailə olmaq...

Əslində, ənənəvi azərbaycanlı ailəsindəki parçalanma, nəsillərarası fərqlər, boşanmaların çoxalması, vətəndaş nikahlarının və atasız uşaqların getdikcə artması bir qədər gözlənilməz oldu. Müxtəlif səbəblərdən ailə anlayışının dəyişməsi və problemlərin getdikcə böyüməsi indi cəmiyyətin probleminə çevrilib. Ailə həyatının fərdin sosial inkişafı baxımından həyati əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, qeyri-sağlam və bədbəxt ailələrin yetişdirəcəyi gələcək nəslin o qədər də sağlam olmayacağını təxmin etmək olar. Cəmiyyətin təməli ailə olduğu üçün xoşbəxt və sağlam nəsillər yetişdirməkdə maarifləndirmənin əhəmiyyətli rol oynadığını vurğulamaq vacibdir.

Azərbaycan kimi mental dəyərlərin, milli ənənələrin var olduğu ölkələrdə ailə quruluşu əhəmiyyətlidir. "İdi" desək daha doğru olardı bəlkə də. İndi aşınma ailələrdən də yan keçməyib. Vətəndaş nikahı 10 il əvvəl nadir rastlanan vəziyyət idisə bu gün normal qarşılanır. Atasız uşaqlar, anasının himayəsində böyüyən körpələr günü-gündən artır.

Ailədaxili münasibətlər sosial problemdir və dolayısı ilə bütün cəmiyyətin problemidir. Ailədə gərginlik varsa, öncə sosioloji tərəfləri araşdırılmalıdır. Psixoloji problemlərin çoxu əslində sosioloji problemlərdən doğur. Ailədə, uşağın böyüdüyü mühitdə vəziyyət necədirsə, uşaq da o xarakterdə böyüyür. Əgər ailədə mehribanlıq, səmimiyyət, xoş davranış, ata-ananın bir-birilə adil münasibəti, qarşılıqlı hörmət yoxdursa, demək, cəmiyyətin daha bir problemli fərdi yaranır.

Hər xalqın, hər millətin dəyərlər sistemi var. Cəmiyyətin özülünü də bu dəyərlər təşkil edir. Köklü dəyəri, ənənəsi olan cəmiyyətlər yüzilliklərin sınağından çıxıb günümüzə qədər sarsılmaz qala bilib, təməlində sarsıntı olan cəmiyyətlərdə isə ən xırda problemlər böyük dağıntılar yarada bilir. Ailələrin təməlinin əsas sütunu qadındır. Milli düşüncədə qadın ailənin ikinci fərdi, ərindən sonra söz haqqı olan biri kimi qəbul edilir. Lakin təcrübə və statistika göstərir ki, qadın kişidən tez böyüyür, həm fiziki, həm də əqli-psixoloji baxımdan.

Qadınların ən ağır ailə yükünü rahatlıqla çiyinlərində saxlamaq kimi fövqəladə bacarığı var. Əslində, məhz o bacarıq sayəsində ailələrin uzunömürlülüyü təmin olunurdu. Lakin qadınlar zəhmətlərinin qarşılığını görmədikləri, öldürüldükləri, zorakılığa, vəhşətə, xəyanətə məruz qaldıqları üçün daha daşın altına əllərini qoymurlar. Buna görə də ailə institutunda çoxdan proqnozlaşdırılan o sarsılmaz, artıq başlayıb. Boşanma statistikası çox şeyi etiraf edir, əslində...

***Lalə Mehralı***

# "Azərbaycan istənilən halda öz məqsədinə çatacaq"







**Xəbər verildiyi kimi, bir neçə gün əvvəl Ermənistan Silahlı Qüvvələri şərti sərhəddə təxribat törədib. Azərbaycan Müdafiə Nazirliyi bildirib ki, erməni bölmələri qəsdən təxribat törətməklə Azərbaycan ordusunun qarşıdurma mövqelərini müxtəlif atıcı silahlardan intensiv atəşə tutub. Nəticədə, bir Azərbaycan hərbçisi həlak olub, digəri başından ağır yaralanıb. Erməni tərəfdən isə 4 nəfər yaralanıb.**

Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Naumov "Moskva-Baku" portalına müsahibəsində sərhəddə yaranmış vəziyyəti və sülh razılaşması ilə bağlı gedən prosesi şərh edib. Müsahibəni təqdim edirik.



## Danışıqlar fonunda eskalasiyanın yeni raundu haqqında

- Münaqişə həll olunmayanda və onun zonasında silahlı insanlar olanda, əlbəttə, gec-tez atəş açılacaq. Aydındır ki, İkinci Qarabağ Müharibəsindən sonra Ermənistan qeyri-mütəşəkkilləşib və mərkəzsizləşib. Bütün səhra komandirləri, silahlı dəstələr Nikol Paşinyana tabe deyil. Təbii ki, Ermənistanda Qarabağın Bakının nəzarətində olmayan hissəsində silahlı təxribatların köməyi ilə sülh müqaviləsinin bağlanmasını pozmaq istəyənlər var. Məqsəd Azərbaycanı təxribat vasitəsi ilə hərbi reaksiyaya məcbur etməkdir ki, sonradan bir şəkildə yeni tərəfdarlar cəlb etmək ümidi ilə bütün beynəlxalq platformalardan, müxtəlif paytaxtlardan Bakının sülhə hazır olmadığını bəyan etsinlər, Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırışlar etsinlər və bununla da münaqişəni daha da uzatsınlar.

Danışıqlar prosesində ləngimənin davam etdiyini görürük. Amma buna baxmayaraq, 2020-ci il noyabrın 10-da üçtərəfli saziş imzalanandan bəri həmişə olduğu kimi, Azərbaycan ən çətin şəraitdən asılı olmayaraq, öz ərazi bütövlüyünün tam bərpasına yaxınlaşır. Amma... yenə də Ermənistan buna məcbur edilmədən sülh sazişinin əldə edilməsi mümkün deyil...

Açığı, əsas problem İrəvanın mövqeyi ucbatından Bakı və İrəvanın danışıqlarda ciddi irəliləyiş əldə edə bilməməsidir. Azərbaycan indi diplomatik, hücum oyunu oynayır və bu sürəti azaltmaq niyyətində deyil. Amma bu oyunun nəticə verməsi üçün qarşı tərəfin güzəştə getməsi, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi lazımdır. Azərbaycan heç bir vasitəçiyə, Ermənistan-Azərbaycan nizamlanması üzrə danışıqlar prosesində güc mərkəzinə simpatiya nümayiş etdirmək vəzifəsini qarşısına qoymur. Azərbaycan üçün əsas olan nəticədir. Bu, mənim fikrimcə, əsas məqsəd və nəticə olanda teleoloji hekayədir.

Bu arada danışıqlarda heç bir nəticə yoxdur, çünki erməni tərəfi vəziyyəti öz xeyrinə təkrarlamaqla bərabər, özü üçün müxtəlif addımlar atmağı mümkün hesab edir. Bu arada mən hələ də görürəm ki, danışıqlar prosesində kiçik irəliləyişlər var, bəzən sülh müqaviləsi bağlamağa hazır olmaq, sərhədlərin Sovet xəritələri ilə tanınması barədə bəyanatlar verilir. Nəticənin sıfır olduğunu söyləmək olmaz. Əslində, keçid məntəqəsi Laçın yolunda yaranıb və bu, artıq Azərbaycan üçün böyük nəticədir. Ermənistanın əməkdaşlıq edib etməməsindən asılı olmayaraq Azərbaycan öz məqsədlərinə çatır. Və burada sual yaranır ki, Ermənistan öz səsvermə hüququna sahib olmaq istəyirmi - yoxsa, Azərbaycan istənilən halda birtərəfli qaydada öz məqsədlərinə çatacaqmı.

Azərbaycan vasitəçilərin Ermənistanı vəziyyətin yeganə mümkün həllinə məcbur edəcəklərini gözləyir, lakin Bakı heç kimdən asılı olmayaraq hər zaman hərəkətə keçməyə hazırdır. Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin quraşdırılması hər kəsin qınağına səbəb olsa da, buna baxmayaraq, post qoyulub və Azərbaycan gömrükçüləri indi Qarabağa silah və sursat daşınmasını istisna etmək imkanı əldə ediblər.

## Danışıq "valsı" və ya vasitəçilərin mübarizəsi haqqında

- Təbii ki, hər bir tərəf- Moskva, Brüssel, Vaşinqton- deyəcək ki, ən konstruktiv tərəfdir özüdür, digərlər isə bu platformadan yalnız özlərinə siyasi xal qazanmaq üçün istifadə edirlər. Amma onu da xatırlamaq lazımdır ki, Vaşinqton və Brüssel Ermənistan-Azərbaycan prosesinə, ümumiyyətlə, açıq məqsədlə - Cənubi Qafqazda Rusiya təsirinin qarşısını almaq məqsədi ilə qoşulmuşdular. Onu da xatırlamaq lazımdır ki, Rusiya yeganə ölkədir ki, Qərbi Avropa və ya ABŞ-dan fərqli olaraq coğrafi cəhətdən birbaşa regionda yerləşir. Rusiya Azərbaycan və Gürcüstanla həmsərhəddir. Bizim üçün bunlar hansısa yad xalqlar, bölgələr deyil, yaxın xalqlardır, tariximiz Cənubi Qafqazla bağlıdır. Azərbaycan bizim üçün Qərb üçün olduğu kimi mücərrəd torpaq deyil, o, bizim qonşumuz, hörmətli strateji tərəfdaşımız və müttəfiqimizdir. Hətta deyərdim ki, Rusiyanın Zaqafqaziya ilə bağlı müəyyən mənəvi amili var. Moskva indi müxtəlif növ təsirlərə, xüsusən də ermənipərəst qrupların təsirinə, qərbyönlü qrupların təsirinə- nəticədə, ümumiyyətlə, öz milli maraqlarımız üçün zərərli təsirlərə məruz qalır. Həmişə kimsə Moskvaya təsir göstərməyə çalışır, lakin Moskvanın regiona yanaşmasının mərkəzində bu anlayış dayanır ki, bu bizim ümumi bölgəmiz, sərhədimizdir.

## Qələbə günü ərəfəsində Moskvada Putin və Paşinyan arasında qapalı danışıqlar haqqında

- Rusiya liderinin mətbuat katibi Dmitri Peskov təsdiqlədi ki, Moskvada 9 May Qələbə günü Rusiya prezidenti ilə Ermənistanın baş naziri arasında danışıqlar aparılıb. Şübhəsiz ki, Putin və Paşinyan Moskvada nizamlanmanı müzakirə ediblər, çünki bu məsələ Rusiya-Ermənistan münasibətlərində əsas məsələlərdən biridir. Əminəm ki, Moskva bir daha İrəvana aydınlaşdırdı ki, nizamlanma olana qədər Rusiya-Ermənistan münasibətlərində hər hansı irəliləyiş görmək mümkün olmayacaq. Əlbəttə, Moskva erməni-azərbaycanlı nizamlanması üzərində işləyir və bu, təkcə əvvəllər haqqında danışdığım mənəvi səbəb deyil, biz başa düşürük ki, reallıq bunu tələb edir: iki ölkə arasında sülh sazişinin bağlanmasına ən çox kömək edəcək ölkə olmaq. Azərbaycanla Ermənistan arasında münasibətlərin yekun şəkildə normallaşması həm siyasi, həm də mənəvi baxımdan Moskvanın maraqlarına uyğundur.

## Türkiyədə keçirilən prezident seçkilərinin nəticələrinin Zaqafqaziyadakı vəziyyətə təsiri haqqında

- Prezident seçkilərində Türkiyənin hazırkı lideri Rəcəb Tayyib Ərdoğanın rəqibi Kamal Qılınçdaroğlunun potensial qələbəsi Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanması prosesini bir qədər çətinləşdirə bilər, çünki Rəcəb Tayyib Ərdoğan Azərbaycanın yanında qətiyyətlə dayanır və Rusiya ilə yaxşı əlaqələri var, bölgəyə xüsusi diqqət yetirir. Və onun rəqibi olan Qılınçdaroğlu, məsələn, Azərbaycanı tarixi İpək Yolunun dirçəldilməsi layihəsində "görmədi". Üstəlik, o, kifayət qədər kobud şəkildə Moskvanı Türkiyədəki seçkilərə guya müdaxilə etməkdə günahlandırıb ki, bu da o qədər də mehriban görünmür. Buna əsaslanaraq başa düşürük ki, belə bir siyasətçi daha çox amerikalı və qərbi avropalı həmkarları ilə qarşılıqlı fəaliyyətə diqqət yetirmək niyyətindədir, onun üçün Cənubi Qafqaz məsələsi, ölkəsinin və qardaş Azərbaycanın milli maraqlarının müdafiəsi məsələsi o qədər də önəmli olmayacaq.

Eyni zamanda, Türkiyədəki prezident seçkilərinin nəticəsi nə olursa-olsun, bu, tarixi inkişaf vektorunu dəyişməyəcək, o zaman ki, Azərbaycan hələ də bütün torpaqlarına nəzarəti bərpa edəcək. Ərdoğanın seçkilərdə nə Azərbaycana, nə də Rusiyaya lazım olmayan potensial itkisi Zaqafqaziyada sülh yolu ilə nizamlanmanın nəticəsini çətinləşdirə və gecikdirə, erməni separatçılarına ümid verə bilər.

## İrəvanda "Nemezis" terrorçuların şərəfinə ucaldılan abidə ətrafındakı vəziyyət və Ankaranın bunun fəsadları ilə bağlı xəbərdarlığı haqqında

- Təbii ki, Ermənistan öz mövqeyini, tarixə baxışını təbliğ edəcək. İrəvanla Ankara arasında mövqelər qütb mənasında fərqlənir. Bu normaldır. Düşünürəm ki, indi əsas odur ki, Ermənistan sülh prosesinə müdaxiləni və Qarabağdakı separatçılara dəstəyi dayandırsın- indi həqiqətən tələb olunan budur. İnanıram ki, Ankara Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasına da düzgün strateji yanaşma nümayiş etdirəcək. Burada da əsas olan tarixi mübahisələr deyil, nəticədir. Baxmayaraq ki, biz, əlbəttə ki, bu mübahisələrin arxasında nələrin dayandığını başa düşürük.

## Bakı ilə İrəvan arasında real normallaşma ssenarisi haqqında

- Normallaşmanın real ssenarisi - indi gördüyümüz ssenari - hər şeyin çox ləng və çətinliklə getdiyi, lakin normallaşma üçün aydın, birmənalı vektorun olduğu və Azərbaycanın bütün torpaqları üzərində nəzarəti bərpa etməsinə səbəb olacağıdır. Hər şey belə də olacaq. Hesab edirəm ki, Rusiya sülhməramlılarının beş illik mandatı başa çatanadək Ermənistan ya sülh yolu ilə etməli olduğu işi görəcək, ya da təzyiq altında etməli olacaq.

## Paşinyanın KTMT və Ermənistan ərazisində yerləşən Aİ missiyasını tənqid etməsinə dair

- Paşinyanın bir tərəfdən KTMT-ni tənqid etmək, digər tərəfdən isə Aİ missiyasını tənqid etmək taktikası tipik "min əl" taktikasıdır, sanki kimsə səni sürüklədiyin bataqlıqdan çıxaracaq. Ona görə də Nikol Paşinyanın bu açıqlamaları ciddi qəbul edilməməlidir. İndi onun qarşısında kimin- Rusiyanın, yoxsa Qərbin dost olduğunu müəyyənləşdirmək vəzifəsi yox, Ermənistan-Azərbaycan prosesində minimal güzəştə getmək və sülh sazişinin qəbulunu mümkün qədər gecikdirmək və, beləliklə, özü üçün bir şey qapmaq vəzifəsi var. Ona görə də bu açıqlamalara o qədər də əhəmiyyət verməzdim.

*Tərcümə - Elçin Bayramlı*

# Şəhid ailələri və qazilərə sosial dəstək

*Prezident İlham Əliyev: "Müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib"*



Sosial, siyasi, eləcə də iqtisadi sahədə dünyaya inkişafını nümayiş etdirən Azərbaycanın dövlət başçısının rəhbərliyi ilə vətəndaşlara olan münasibəti dünyaya nümunədir. Belə ki, dövlət başçısının müxtəlif görüşlərdə, tədbirlər çərçivəsində, baş verən hadisələr zamanı vətəndaşların yanında olması, onların problemlərinin həllinə operativ şəkildə reaksiya verməsi, artıq bütün dünya üçün yeni model və təcrübədir. Əlbəttə ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Azərbaycan Prezidentinin çıxışlarının birində bildirdiyi kimi, "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı, sağlamlığı və təhlükəsizliyi dayanır".Vətənin müdafiəsi yolunda canını fəda etmiş, şəhidlik zirvəsinə yüksəlmiş, eləcə də əlil olmuş insanlara həssas münasibət də dövlətimizin humanizm prinsiplərini özündə ehtiva edir. Müzəffər Ali Baş Komandan İlham





TƏHLİL

Əliyev həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərir. Onların sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar reallaşır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir. Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur".

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən, şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi icra olunur. Şəhidlərin ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi əlbəttə ki, bu qəbildən olan insanlara olan qayğının göstəricisidir. Statistik rəqəmlər deməyə əsas verir ki, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlərin hər il artırılması təmin edilib, müharibə veteranlarına aylıq təqaüd təyin edilib. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.

## 411 HƏRBÇİ 428 YÜKSƏK TEXNOLOGİYALI SON NƏSİL PROTEZLƏ TƏMİN EDİLİB

Son illər yaradılan müasir reabilitasiya infrastrukturu Zəfərimizin qəhrəmanları olan, müharibədə yaralanmış hərbçilərimizin səmərəli, keyfiyyətli tibbi-sosial reabilitasiya xidmətləri ilə əhatə olunması üçün də mühüm potensialdır. İkinci Qarabağ müharibəsindən sonra reabilitasiya müəssisələrində müharibə ilə əlaqədar əlilliyi olan 2722 şəxsə reabilitasiya xidmətləri göstərilib, müharibə ilə əlaqədar əlilliyi olan 1913 şəxs 35,5 min reabilitasiya vasitəsi ilə təmin olunub. 2020-ci ilin dekabr ayından isə müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı son nəsil protezlə təminat proqramına başlanıb və I və II Qarabağ müharibəsində yaralanaraq aşağı və yuxarı ətrafları amputasiya olunmuş 411 hərbçi 428 yüksək texnologiyalı son nəsil protezlə təmin edilib.Şəhid ailələri üzvləri və müharibə iştirakçılarından ibarət 17,7 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 9,9 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

## ŞƏHİD AİLƏLƏRİ VƏ ƏLİLLƏR 13560 MƏNZİL VƏ FƏRDİ EVLƏ TƏMİN OLUNUB

Bütün bunlarla yanaşı, təqdim edilən mənzil və fərdi evlər də daxil olmaqla 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 4760, bu il 260, ümumilikdə ötən dövrdə isə 13560 mənzil və fərdi ev verilib.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ölkəmizin bir çox yerlərində 100 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib. Xatırladaq ki, 2021-ci ilin əvvəlindən Vətən müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur.Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlərlə təminatı proqramına da Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanıb və bu tədbirlər ildən-ilə uğurla davam etdirilib. Dövlət başçısının tapşırığına əsasən 2023-cü ildə də ən azı 1500 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlarımıza veriləcək. Bütün sosial proqramlar kimi, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminatı proqramı da ildən-ilə uğurla davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi: "Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".Şəhid ailələrinə və əlillərə qayğı göstərmək dövlətin prioritet vəzifəsidir və dövlət başçısı qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini hər zaman diqqət mərkəzində saxlayır..

Azərbaycan Prezidenti İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı nəticəsində ölkəmizdə ardıcıl sosial islahatlar aparılmaqla sosial müdafiə və aktiv məşğulluq proqramlarının xeyli genişlənməsi, müasir və etibarlı, dayanıqlı sosial müdafiə sisteminin qurulması, sosial ödənişlərdə davamlı artımlar təmin edilib. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə, sosial sahəyə xüsusi diqqət və qayğı ilə davam etdirilən uğurlu sosial inkişaf strategiyası ölkəmizdə qarşıdakı dövrdə də yeni-yeni sosial uğurların əldə olunmasına təminat yaradır.

Müstəqil Azərbaycanımız 44 günlük Vətən müharibəsində Zəfərimizi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun, məhz şəhidlərimizin, qazilərimizin qanı və canı bahasına əldə edib. Şəhidlər və müharibə əlilləri böyük fədakarlıq göstərək öz həyatlarını və sağlamlıqlarını Vətən yolunda qurban veriblər. Odur ki, şəhid ailələrinə və müharibə əlillərinə böyük diqqət və qayğı davamlıdır. Bütün bunlar ölkədə aparılan uğurlu sosial siyasətin və Vətən uğrunda öz canını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvlərinə və sağlamlığını itirmiş müharibə əlillərimizin daim dövlətin diqqət mərkəzində olmasının bariz nümunəsidir.

**Nəzakət ƏLƏDDİNQIZI**

ARAŞDIRMA

# Oyuna salan oyunlar...

Həyatımıza internet daxil oldu, olmadı, onsuz da oyuna düşdük. Uşaqlı-böyüklü hər kəs qaldı kompüter qarşısında, saatlarla qalxmaq barədə düşünmədi. Beyinləri yoruldu, qədləri əyildi, gözləri məhv oldu, lakin, yenə də qalxmaq nədir, bilmədilər. Uşaqlarımız bütün meylini kompütere, daha sonralar isə smartfon telefonlara saldı. Saatlarla internet aləmində gəzdilər, dolaşdılar, bizlərin isə əksəriyyəti heç bunun fərqində də olmadıq ki, axı uşaq bu qədər nə ilə məşğuldur. Əksinə, 2-3 yaşlı uşaqlarımız da zamanla telefonlarımıza dadandılar. Əllərinə telefon vermədinmi, yemək yemədilər, sakit dayanmadılar. Belə olanda bizlər asan yolu tapdıq. Telefonu verdik onların əlinə ki, səsləri kəsilsin, saatlarla qoyduq televizorun qarşısına ki, səsləri çıxmasın. Övladlarımız isə televizorda bizim mentalitetə, həyat tərzinə uyğun olmayan cizgi filmləri ilə dolduruldular. Telefonlarda uşaqlar nələrin şahidi oldu, onu da Allah bilir. Sən uşağa nəzarət etmirsənsə, buna əmin ol.

Lakin heç təsəvvür etməzdik ki, qarşıda elə oyunlar olacaq ki, bu oyunlar onun kölgəsində qalacaq. Məsələn, hansısa bir videonu, mahnını yükləmək üçün əməliyyat apararkən qarşımıza çıxan və təklif olunan oyunlar kimi. O oyunlar ki, illərdir ki, bizləri oyuna salır. Lakin bizə bu oyunlar hələ də dərs olmur ki, olmur...

## Başlanğıc...

Azərbaycanda 13 illik fasilədən sonra, 2011-ci ildə ilk və yeganə qanuni idman mərc oyunu və "Caspian Tech" QSC-nin ticarət nişanı olan "ToPaz" fəaliyyətə başlayıb. Bu portal təhlükəsiz, dövlət təminatlı və qanuni hesab olunur. Digər bütün mərc və onlayn platformalardakı oyunlar isə qanunsuzdur.

İnternetdə daha çox "1xBet", "MotsBet", "Vulkanbet", "22bet", "PinUpbet" oyunlarının reklamları ilə qarşılaşmaq olur. Pandemiya dövründə əlacsızlıqdan kazino, bar, qumarxanalardan virtual aləmə köçürülən bu oyunların əksər istifadəçiləri gənclərdir. Bu yaşda olanlar belə elanlara daha tez aldanır və bu platformalara pul köçürərək, mərc etməyə başlayırlar.

Bəli, başlanğıcda hər şey çox sadədir. Qeyd etdiyim kimi, sosial şəbəkələrdə gəzişirsən, qarşına bir reklam çıxır. Səni bu oyundan yararlanmağa dəvət edir. Və yaxud da telefonuna linklər gəlir, açırsan... Elə hər şey də bunlardan sonra başlayır.

Təklif olunur ki, oyna, qazan! Milyonlara sahib ol! Həyatını dəyişdir! Sən, sən ol! Sən də nə edirsən, şirniklənirsən ki, axı qoy görüm, bu nə təklifdir, qoy bir baxım da. Beləliklə daxil olursan və ilkin olaraq sözsüz ki, qazanırsan. Çünki oyunların hamısı bu prinsipə xidmət edir ki, səni özünə cəlb etsin.

Qazandınmı, nə edirsən, qızışırsan. Daha böyük məbləğlər əldə etmək üçün mübarizəyə başlayırsan. 50 manat qoyub 70 manat götürürsən, həmin 70 manatı qoyub 100 manat əldə edirsən, beləliklə də şirnikləndirmə səni yeni bir yola yolçu edir.

## Həyatın dəyişir?!

Bəli, oyunların reklamında deyildiyi kimi, həyatın dəyişir. Ancaq hansı istiqamətdə dəyişir, bunu görənlər və yaşayanlar ölkəmizdə yüzlərlədir. Həyatın dəyişir... Nə sən əvvəlki sən olursan, nə də cəmiyyətin, qohum-əqrəbanın, ailənin sənə qarşı münasibəti əvvəlki kimi olur.

İndi tez-tez belə ifadələr eşidirik: filankəsin oğlu qumara qurşanıb, xəbərin var? Filankəsin əri oyuna qurşanıb, eşitmisən? Filankəsin qızı filankəsin oğlundan qumara görə ayrılıb, bilirsən? Filankəsin əri evdən arvadının qızıl zinət əşyalarını da oğurlayıb oyunda uduzub, eşitmisən? Filankəsin oyunlarda uduzduğu pula görə banklara nə qədər kredit borcu var, xəbərin var?

Bəli, sadaladıqlarımın hər biri həyatında yaşanan onlarla insanın şahidiyik. Onların bu oyunlara aludə olması, daha sonra isə bu tilsimdən çıxa bilməmələri sadalamadığım nələrlə nəticələnib.









Adının çəkilməməsini xahiş edən ailəsi dağılan "A" adlı gənc deyir: bir neçə il əvvəl təsadüfən qarşıma çıxan reklam marağıma səbəb oldu. Bir neçə dəfə bu reklama baxmamağa cəhd etsəm də, sonda elə bil Allah ağlımı başımdan aldı, baxmalı oldum. Elə bir baxışla da həyatım dəyişdi. Əvvəlcə bir neçə dəfə uddum. Kiçik məbləğlər böyük məbləğlər üçün şirnikləndirdi məni. İşdən gəlirdim, keçirdim o biri otağa, başlayırdım oyuna. Yoldaşım bundan çox narahat olurdu. Hətta yemək üçün məni otaqdan zorla çıxarırdı. Məktəbli oğlum var, onun tərbiyəsi, dərsləri ilə məşğul olmağı birdəfəlik unutmuşdum. Evimizi ipoteka ilə almışdıq. Hər ay ödəniş etməli idik. Mən isə ailə başçısı olaraq oyuna qurşanmışdım. Əmək haqqı vaxtı baxırdım ki, ipotekanı ödəməyə, evə bazarlıq etməyə əlimdə pul qalmır. Beləliklə, həyat yoldaşımla aramızda münasibətlər pozulmağa başladı. O, əvvəllər elə bilirdi ki, mən onu hansısa bir qadınla aldadıram. Otaqda saatlarla qalmağım onda bu təəssüratı formalaşdırmışdı. Kim olsa, belə düşünərdi. Lakin sonra bildi ki, mən hansı yoldayam.

Yoldaşım həm mənim, həm də öz valideynlərinə xəbər verdi. Gəldilər, məni qarşılarına qoyub danladılar, məsləhət verdilər. Mən də onlara söz verdim ki, ta oynamayacam. Lakin aradan bir neçə gün keçməmiş baxdım ki, yenə oyundayam.

Dövlət işində işləyirəm. Yaxşı da əmək haqqı alıram. Amma nə olsun, maaşı haradan aldım, hara getdi, bilmirəm. Yoldaşım bezib məhkəməyə boşanmaq haqqında ərizə verdi. Boşandı məndən. Mən də evdən çıxmalı oldum. İndi oğlumun qayğısı da, evin ipotekası və dolanışığı-hamısı yoldaşımın üzərindədir.

Mənimsə qazancım küçələr oldu. İşdən sonra küçələrdə veyillənmək. Sonra da kiraya yaşadığım evdə oyun oynamaq. Bilirəm ki, səhv yoldayam, amma bu yoldan ayrıla bilmirəm. Heyif ailəmdən, oğlumdan. Mən onları itirdim. Bundan sonra nə etsəm də, onları geri döndərə bilmərəm. Mən ailəmi oyuna satdım. Çox təəssüf hissi içərisində yaşamaqdayam...

Adının çəkilməsini istəməyən "M" isə orta yaşlıdır. Əvvəlcə maşınını, evdən oğurladığı qızıl əşyaları, daha sonra isə evini oynadığı oyuna qurban verib. Hazırda ailəsi ilə birlikdə kirayədə yaşayır. Ailəsi dəfələrlə dağılmaq təhlükəsində olub. Lakin valideynlər buna mane olublar. Birtəhər ki, ailəni bir yerə yığıblar. Oğullarını da yolundan döndərə biliblər.

Hazırda həmin ailə çox çətinliklə yaşayır. "M" beş nəfərlik ailəsini günəmuzd fəhləlik etməklə dolandırır. Övladlarının böyüməsi, qayğılarının artması isə onun işini daha da çətinləşdirib. O, bu böyük səhvi etdiyi üçün peşman olduğunu və rayonda yaşadığı üçün el arasına çıxmaqda çətinlik çəkdiyini bildirir. Utandığından evə, işə elə gəlib-getməyə çalışır ki, onu görən olmasın.

Yenə də adının çəkilməsini qəti şəkildə istəməyən "Y" deyir ki, dövlət işində çalışıram. İllərdir ki, oyunlara aludə olmuşam. Əvvəl xeyli qazandım, daha oyundan çıxa bilmədim. Dedim elə yəqin belə də olacaq, həmişə udacağam. Lakin günlərin bir günü uduzdum. 500 manat ödəməli oldum. Əmək haqqımı aldım, ödədim, əlimdə bir o qədər pul qalmadı. Axı ailənin qayğıları, evin bazarlığı, digər xərclər-hamısı maaşıma bağlı idi. Belə olanda iş yoldaşlarımdan borc almağa başladım. Onların arasında hörmətim olduğu üçün heç kim mənə "yox" demədi. Beləliklə, 1000-1500 manata qədər borc aldım. Arada kiçik məbləğlər udub, böyük məbləğlər uduzdum. Fikirləşdim ki, əmək haqqımı buraya versəm, uşaqlar ac qalacaq. Ona görə də məcbur qalıb kredit götürdüm. Bundan heç kimin xəbəri olmadı. Kreditlə borclarımın bir qismini ödədim. Söz verdim ki, bir də oynamayacağam...

Lakin günlər sonra özümü yenə oyunda gördüm. Nə etdimsə, ayrıla bilmədim. İş yoldaşlarım bu arada verdikləri pulu istədilər, qaytara bilmədim. Artıq kollektivdə mənə qarşı inamsızlığın formalaşdığını açıqca hiss edirdim. Bir daha borc istədim, gördüm ki, artıq mənim haqqımda hamı eyni fikirdədir və mənə bir qəpik də verən olmadı. Məcbur qalıb başqa bankdan da pul götürməli oldum. Beləliklə elə bir oyuna düşdüm ki, çıxmağım mümkün olmadı.

Atamgil hadisədən xəbərdar oldular. Mənimlə söhbət etdilər. Bu yoldan dönməyimi tələb etdilər. Sözün düzü, işimi itirəcəyimdən də qorxdum. Söz verdim ki, çəkiləcəyəm. Çəkildim də. İndi atamgil ailəmin dolanışığına köməklik edirlər, özümsə aldığım əmək haqqını iş yoldaşlarımdan aldığım borclara və kreditlərə ödəyirəm. Hələ qarşıda neçə illər var ki, həmin borclar və kreditlər bitsin...

## Eynilə narkomaniya...

Bütün bu söhbətləri dinləyəndən sonra bu qənaətə gəldim ki, bu oyunlar eynilə narkomaniya kimi bir şeydir. Hər ikisinin başında iradəsizlik, daha sonra asılılıq, sonda borclanmaq, oğruluq, qeyri-sağlam həyat tərzi, hətta ölüm dayanır. İnsan necə ki, ətrafında olan pis dostların tələsinə düşür, onların qurbanına çevrilir, narkomaniyaya başlayır, virtual dostlar da adamı başdan çıxarıb oyunlara sürükləməklə onu eynilə narkomaniyaya bənzər bir yola yolçu edir.

Narkoman da eyni həyatı yaşayır, oyunçu da. Narkoman da borc istəyir, oğurluq edir, öz evindən əşya götürüb satışa çıxarır, yeri gələndə kredit də götürür, oyunçu da eynilə... Bütün bunları o da təkrarlayır. Onların ortaq oxşarlığı isə iradəsizlik, bunun yaratdığı aludəlikdir.

Narkomaniyanın da sonunda ailə itkisi, yaxınların, qohumların, dostların üz çevirməsi var, oyunların da. Narkoman da zamanla hörmətdən düşür, cəmiyyətdən təcrid olunur, oyunçu da. Hər ikisi pul əldə etmək üçün üz tutmadıqları qapı, axtarmadıqları yol qalmır. Ən bağışlanmaz hal isə onların öz evlərindən oğurluq etməsidir ki, bu, hər iki səhv yolda dəfələrlə müşahidə olunan vəziyyətdir. Öz evindən oğurluq isə mənəviyyatın ölməsi, insanlığın sıradan çıxması deməkdir. Onlar üçün həyat yoldaşının, övladın heç bir qiyməti yoxdur. Çünki elə bir yola düşürlər ki, onları bu yoldakı istəklərdən başqa heç nə düşündürmür.

Odur ki, narkomaniya tək bəla deyilmiş, oyunların insanları saldığı oyunlar narkomaniyadan da pis bəla imiş...

## Ha poz ki...

Elə söhbətin bu yerində hər addımda qarşılaşdığımız "Poz, qazan!" oyunu barədə də bir neçə kəlmə danışmaq, yerinə düşər. Çünki bu oyun da kimlərinsə xeyrinə, kimlərinsə ziyanınadır. Biz nəyi pozuruq, nəyi qazanırıq, heç bilirikmi? Kim bu oyundan sanballı nə isə qazanıb, xatırlayırmı?

"Poz, qazan!" yarandığı vaxtdan onun satışı ilə məşğul olan şəxs bir dəfə etiraf etmişdir ki, neçə illərdir, bu işlə məşğul oluram, bircə dəfə bir nəfər 100 manat udub. Deməli, digər insanların isə yalnız başı aldadılır.

*Ardı Səh. 13*

# Oyuna salan oyunlar...



Əvvəli Səh. 12

"Poz, qazan!"ı çox vaxt vadar olub oynayırıq, yəqin bunun fərqinə varan olub. Məsələn, metroya giririk, marşrut avtobusdan istifadə etmək istəyirik, karta pul yükləmək lazım gəlir. Baxırsan ki, cibində xırda pul, yəni manatlıq yoxdur. Deməli, nə etməlisən, pul xırdalamalısan. Başlayırsan metronun, dayanacaqların ətrafında ha fırlanırsan ki, pul xirdalayasan, bir yer tapa bilmirsən. Bu haldan səmərəli şəkildə istifadə edib metroya, dayanacaqlara yaxın yerlərdə məskunlaşan "Poz, qazan!"çılara yaxınlaşıb, bir dəfə pozmaqla qazanmasan da, pulunu xırdalaya bilirsən. Beləliklə "Poz, qazan!"çılar qazanır, sənsə itirirsən. Hər gün yüzlərlə adam "Poz qazan!"çıların tələsinə düşür. Ya pul xırdalamaq üçün, ya da bir manat nədir ki, bir bəxtimi sınayam dedikləri üçün...



Görəsən, olmazdı ki, metroda və dayanacaqlarda pul xırdalamaq üçün bir yer nəzərdə tutulardı? Axı əvvəllər belə idi. Manat verib qəpik alırdın ki, metrodan istifadə edə biləsən. Yaxın məsafələrdə belə bir xidmətin nəzərdə tutulması çox vacibdir. Əks təqdirdə həm insanlar əziyyət çəkir, həm də "Poz qaçan!"çılar qazanır.



Sən də ha poz ki, nə isə qazanacaqsan... Bu da oyuna salan oyunlardan biri deyilmi?..

## Bəs nə etməli?..

Qeyd edək ki, ölkədə bəzi mərc saytları bloklanıb və girişi məhdudlaşdırılıb. Ölkəmizdə həm də oyunların təhlükəsizliyini təmin etmək üçün tutarlı qanunlar var ki, onlar tətbiq olunmaqdadır. Amma "MostBet" və "1xBet" kimi böyük istifadəçi kütləsi olan saytların həm reklamına, həm də girişinə heç bir məhdudiyyət qoyulmayıb.

Mərc oyunları həvəskarlarının 60 faizi indi onlayn qumar ilə məşğuldur. ABŞ, Almaniya və İsveçrə dünyanın ən çox mərc oynanılan ölkələri hesab olunurlar. Elə bu səbəbdən də artıq ABŞ internetə nəzarət mexanizmini hazırlayıb tətbiq etməyə başlamaq üzrədir. Bəli, dünyanı yaratdıqları oyunlarla zəhərləyən dövlətlər indi özlərini bu bəladan xilas etmək üçün yollar axtarır. Bəs digər insanlar?..

Qonşu Türkiyədə səlahiyyətli şirkətlər istisna olmaqla, mərc oyunları qadağandır. Lakin burada da son illər mərc oyunlarına böyük həcmlərdə vəsait qoyulur. Bu səbəbdən də 18-50 yaş qrupunda olan 5 milyon insan ildə 50 milyard pul itirib. Bu statistikaya əsasən belə bir sual çıxır meydana: tək pulmu? Xeyr, insanlar oyunlara meyil salmaqla, aldanmaqla, aldadılmaqla mənəvi dəyərlərini, ailə dəyərlərini, həyat yoldaşlarını, övladlarını da itirirlər. Pul ər çirkidir, deyirik. Onu nə vaxtsa, çətinliklə də olsa, ödəmək olur. Bəs itirilən mənəvi dəyərlərin necə, yerini doldurmaq olurmu?..

Bəs nə etməli?.. Bunun bir yolu var. Bizləri oyuna salan oyunlardan kənar olmalı. İnanmamalı, o linklərə daxil olmamalı, o reklamlara aldanmamalı. Dəhşətli hal odur ki, əsasən "Youtube"də, digər sosial şəbəkələrdə də aldanmış və aldadılmış yüzlərlə insanın etiraflarını oxusaq da, mətbuatdan bu qəbildən olan insanlar haqqında oxuyub məlumat alsaq da, yenə də aldanırıq. Deməli, biz şüurumuzda dönüş etməliyik. Ətrafımızdakı insanlara baxıb dərs almalıyıq. Dağılan ailələrə, atasız qalan uşaqlara, evsiz qalan ailələrə, kollektiv arasında hörmətdən düşən, cəmiyyət arasında pis mənada barmaqla göstərilən insanlara baxıb öz yolumuzu müəyyənləşdirməliyik.

Oynayaq, yoxsa, oynamayaq? Oynayarıqsa, sözsüz özümüzü oyuna salacağıq. Bunun başqa yolu yoxdur...

***Mətanət Məmmədova***

## "Nikol Paşinyan qəti qərara gəlməlidir"

*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*



"Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş ciddi maraq doğururdu və bu görüş münasibətlərin normallaşdırılması üçün yeni imkanlar yarada bilər". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri qeyd edib ki, Azərbaycan Prezidenti Brüsselə səfər zamanı bir daha Şarl Mişelin ziddiyyətlərin aradan qaldırılması və sülh sazişinin imzalanması üçün göstərdiyi səyləri yüksək qiymətləndirmiş və keçirilən görüşün də səmərəli olacağına inamını ifadə etmişdir.



"Azərbaycan sülh tərəfdarıdır və bu sahədə həyata keçirilən, göstərilən hər bir təşəbbüsə hörmətlə yanaşır. ABŞ Dövlət Departamentinin səyləri də, istər dövlət rəhbərləri, istərsə də xarici işlər nazirlərinin səviyyəsində keçirilən görüşlər, Azərbaycanın milli maraqlarına, ərazi bütövlüyünə, sərhədlərimizin toxunulmazlığına yönəldilən hər bir çağırış, görüş dövlətimiz tərəfindən qəbuledilendir və heç bir etiraz doğurmur. Ermənistan tərəfindən bu görüşlər, danışıqlar dəstəklənsə də, vədlər verilsə də, təəssüflər olsun ki, sonradan o əməli fəaliyyətdə özünü göstərmir, əksinə, görüşlərdən əvvəl və sonra Azərbaycanın dövlət sərhədlərində yeni təxribatlar törədilir, insanlar qətlə yetirilir və bununla da Ermənistan ya görüşlərin keçirilməsinə maneçilik yaradır, digər tərəfdən onun nəticələrini heçə endirir.

Görüşdən sonra Şarl Mişelin bəyanatında səslendirilən fikirlər nikbinlik yaratsa da, dövlətlərin sülhə yaxınlaşmasına ümidləri artsa da, ancaq Azərbaycan cəmiyyəti yenə də Ermənistan rəhbərlərinin səmimiyyətinə inanmır. Çünki Nikol Paşinyan öz ağlı ilə deyil, başqa ölkələrin rəhbərlərinin fikirləri, diktəsi ilə hərəkət edir. Münasibətlərin normallaşdırılmasına digər ölkələri cəlb etməklə, vaxt qazanmaq, daha münasib himayədarlar tapmaq fikrindədir. O, Rusiyadan əlavə Amerikanı, Almaniyanı, Fransanı bu prosesdə iştirakçı görmək arzusundadır. Sözsüz bu dövlətlərin hər birinin Cənubi Qafqazda öz marağı var və əlbəttə ki, onları Ermənistanın taleyi o qədər də ciddi maraqlandırmır.

Belə olan halda bu dövlətlərin verdikləri təklifləri, etdikləri diktələr heç də üst-üstə düşmür və bu da Ermənistanın baş nazirini çaşbaş qoyur. Elə bilirəm bu dəfə də belə olacaq. Reallıqlar belə bir qənaətə gəlməyə əsas yaradır ki, Nikol Paşinyan nə qədər özündə qətiyyət tapıb sülh danışıqlarına sərbəst getməyəcəksə, sülh müqaviləsinin imzalanması da o qədər uzanacaqdır. Ermənistanın baş naziri münasibətlərin normallaşdırılması, qəbul edilən bəyanatların, görüşlərdə qarşıya qoyulan vəzifələrin, öhdəliklərin yerinə yetirilməsi, xalqının gələcək taleyi üçün qəti qərara gəlməlidir. Əks təqdirdə Ermənistanda iqtisadi və siyasi böhran daha da dərinləşəcək və bu özünün daha ağır nəticələrini göstərəcəkdir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

ANALİTİK + ÖZƏL

# Putinin məqsədi nədir?

## "Newsweek": "Rusiya Ermənistan və Azərbaycan arasındakı danışıqlara ciddi maneələr yaradır"




факти
Мнения » От това зависи победата на Украйна ср
ТЕМА: УКРАЙНА
9 Май, 2023 15:50
13 2 750
От това зависи победата на Украйна срещу Русия
санкции - русия - сащ - украйна - ес - европа - ...урция - казахстан - стоки - владимир путин - война - ...ор чаленко - хъб - армения
...шингтон и Брюксел издирват из целия свят ...мпаниите, които участват в нелегалните ...ставки на оборудване и стоки за Руската ...дерация
Снимка: БГНЕС/ ЕРА
Факти




Newsweek România
De ce este Federația Rusă principalul obstacol în negocierile dintre Armenia și Azerbaidjan
DE OCTAVIA CONSTANTINESCU
Actualizat: 08.05.2023 - 11:44
Imagine cu caracter ilustrativ Foto: profimediaimages.ro
Ultima oră



Son günlər şərti sərhədlərdə erməni təxribatı nəticəsində baş verən silahlı toqquşmalardan sonra bir sıra xarici media qurumları müxtəlif aspektlərdən yanaşmalar edərək hadisələrin maraqlı və diqqətçəkən təhlillərini aparırlar. Misal üçün, "Newsweek"in Rumıniya versiyasının qeyd etdiyinə görə, Ermənistanın Azərbaycanla danışıqlarındakı əsas maneə məhz Kremldir. "Rusiya Federasiyası iki ölkə arasındakı danışıqlara ciddi maneələr yaradır", yazan nəşr onu da əlavə edir ki, Kreml Cənubi Qafqazdakı hərbi bazalarının saxlaması üçün təsiretmə mexanizmini işə salıb və Moskva hər vəchlə səy göstərir ki, Bakıya təsir edə bilsin.

**Paşinyanın Rusiyaya son səfərindən sonra dərhal silahlı təxribatlar baş verdi və bu da təsadüf ola bilməz**

Lakin Bakının buna imkan verməməsi Moskvanın İrəvanla gizli sövdələşmələrə getməsinə səbəb olur. Bu iddiaya haşiyə olaraq qeyd edə bilərik ki, Paşinyanın Rusiyaya son səfərindən sonra dərhal silahlı təxribatlar baş verdi və bu da təsadüf ola bilməz.

Adıçəkilən nəşr ukraynalı jurnalist Dmitri Qordonun da fikirlərinə istinad edərək yazır ki, 2021-2023-cü illərdə Azərbaycan vaxtilə Rusiyanın Avropa ölkələrinə verdiyi enerji resurslarının əsas alternativi rolunu oynayıb.

**Dmitri Qordon: "Belə situasiya Moskvanın Cənubi Qafqazda hərbi mövcudluğunu qoruyub-saxlamasına imkan yaradır"**

"Moskva Tehranla birgə İrəvanın bir vaxtlar Gürcüstan kimi Qərbə doğru orientasiya etməsinə də mane olmağa çalışır", yazan "Newsweek" bildirir ki, Putin Qarabağda olan marionet-separatçıları şəxsi hədəfləri və məqsədləri üçün istifadə edir: "O (Putin)? "rus dünyası" adı altındakı eyni şeyi osetinlərin və abxazların vasitəsi ilə Gürcüstana qarşı etmişdi. Bu vəziyyət Krımda və Donbasda da yaşandı. Habelə Rusiyanın nəzarəti altındakı şərqi Moldovada - Dnestryanıda da eyni durum saxlanılmaqdadır. Belə situasiya Moskvanın Cənubi Qafqazda hərbi mövcudluğunu qoruyub-saxlamasına imkan yaradır...", deyə nəşr bildirir.

**"Faktı" nəşri, Bolqarıstan: "Brüssel və Vaşinqton Ermənistan üzərindən Rusiya hərbi sənayesinə göndərilən qanunsuz texnika və avadanlıqların qarşısını almaq üçün total blokada tətbiq etməlidir"**

Bolqarıstanın "Faktı" nəşri isə Ermənistana qarşı təzyiqlərin artırılması haqqında maraqlı məqalə ilə çıxış edib. Hətta məqalənin tələb xarakteri alması da diqqət çəkir. Beləliklə, "Faktı" yazır: "Brüssel və Vaşinqton Ermənistan üzərindən Rusiya hərbi sənayesinə göndərilən qanunsuz texnika və avadanlıqların qarşısını almaq üçün total blokada yaratmalı və tətbiq etməlidir. Ermənistan üzərindən Rusiyaya keçirilən Qərb texnologiyaları ABŞ-ı və Aİ-ni qayğılandırmalıdır".

Qeyd etmək yerinə düşərdi ki, Çernoqoriyaya bağlı nəşrlər də bənzər mövzulara toxunmaqla yazırlar ki, Ermənistan Putin üçün sanksiyalardan yayınmaqda əsas kanal rolunu alıb.

*Afət Tahirqızı*



MƏTANƏT

# İqlimə divan tutan bizlər...

**Mayın 15-də bütün dünya Beynəlxalq İqlim Gününü qeyd edir. Əslində. bu günün təsis edilməsində əsas məqsəd dünyanın dayanıqlı inkişafı üçün iqlim dəyişmələri ilə mübarizəyə beynəlxalq ictimaiyyətin cəlbi olub.**

Tez-tez yazırıq, oxuyuruq ki, iqlim dəyişmələri bu gün bəşəriyyətin üzləşdiyi qlobal problemlərdən biridir. Qlobal istiləşmə, təbii fəlakətlər, planetdə dəyişən hava şəraiti - bütün bunlar Yer kürəsinin iqliminin dəyişməsinə gətirib çıxarır və nəticədə insanların qida və həyat təhlükəsizliyi, təbii ehtiyatların vəziyyəti və dövlətlərin tarazlı inkişafına mənfi təsir göstərir.

Bəs iqlimin bu qədər dəyişməsinin səbəbkarı kimdir, heç bu barədə düşünürükmü? Biz bu səbəbi təbiətdə axtarırıq. Bir dəfə özümüzə sual vermirik ki, axı təbiət öz-özünə iqlimini necə dəyişdirə bilər? Biz insanların əlləri ki, var, təbiətə nə edirsə, bax, bu əllər edir...

Bizləri ana kimi qoynuna alan, sağlamlıq, sağlam həyat tərzi bəxş edən, soyuqdan, istidən qoruyan, qidalandıran təbiətə biz nə veririk əvəzində? Nə veririk, bilirsinizmi? Biz təbiətə divan tuturuq.

Dünyada müharibələrin səbəbkarı kimdir? Təbiət, yoxsa insan? Əlbəttə, insan. Müharibələrin təbiətə, iqlimə nə qədər ziyan vurduğunun fərqinə necə, varan varmı?

Əllərimizlə yaratdığımız zavodların borularından havaya ötürdüyümüz tüstü, iqlimə hansı divanı tutur, bunun necə, fərqinə varırıqmı?..

Çirkləndirdiyimiz, əlimizə keçəni hara gəldi tulladığımız ətraf mühitə, qol-budağını qoparıb ocağımıza qoyub özümüzə çay qoyduğumuz, kabab çəkdiyimiz ağacların məskunlaşdığı meşələrə tutduğumuz divanı başqa hansı canlı tuta bilər?..

Kəsib məhv etdiyimiz ağacların yerində saldığımız çoxmərtəbəli binalardan gəlir əldə edəndə iqlim barədə düşünmüşükmü bircə dəfə? Bunu edənlər həyatlarında bircə dəfə də olsa, bir ağac əkiblərmi?

Tövsiyə olunur ki, iqlimin qorunması planetin hər bir sakinindən asılıdır. Bəli, bu, belədir. Lakin biz bu tövsiyənin mahiyyətini həyatımızda bircə dəfə də olsa, dərindən dərk etmişikmi?

Tövsiyə olunur ki, iqlimi qorumaq üçün avtomobildən daha az istifadə edək. Biz nə edirik, nəyin bahasına olursa-olsun, maşın almağa çalışırıq. Kredit götürürük, pul yığırıq, bilmirəm daha nələr edirik ki, qonşunun, qohumun, iş yoldaşının var, bizim niyə maşınımız olmasın. Beləliklə də iqlimə də divan tuturuq, özümüzə də. İqlim tüstüdən əldən gedir, bizim qulaqlarımız da saysız maşınların səs-küyündən, yersiz siqnalından.

Tövsiyə olunur ki, mənzillərdə enerjiyə qənaət edən işıqlandırma mənbələrinə üstünlük verək. Veririkmi? Əksəriyyətimiz bu işıqlandırma sistemini bəyənirikmi? Əsla. Onların işıqlandırmasının zəif olduğunu bəhanə edib vaz keçirik. Tövsiyə olunur ki, ağacəkmə aksiyalarında və yaşıllıqların mühafizə tədbirlərində aktiv iştirak edək. Bu aksiyalara əksəriyyətimiz nə vaxt könlümüzün səsi ilə çıxırıq? Və yaxud əksəriyyətdən kim sonuncu dəfə belə aksiyada iştirak edib?

Biz təbiətə divan etmək üçün yaranmış canlılarıq. Divan edə-edə də həyatımıza davam edirik. Harada təbiət məhv olar, olar. Lakin bir anlığa düşünək ki, təbiət məhv olarsa, biz də məhv olarıq. Ondan bir gün artıq yaşaya bilmərik. Çünki təbiətin hesabına ayaq üstündəyik. Bunu tək mayın 15-i deyil, hər gün, hər an düşünək!

# Dini bütöv, mənəviyyatı dərin Azərbaycan!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

***Prezident İlham Əliyev Şuşaya son səfərində Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışında iştirak etdilər. Məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Məscidin müəllifi məşhur memar Kərbalayi Səfixan Qarabağidir. Bu məscid müəllifin ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib.***









### Qarabağın bütün dini abidələri vandalizmə məruz qalıb

Məlumat üçün bildirək ki, Şuşa şəhəri işğal altında olduğu müddətdə Yuxarı Gövhər Ağa məscidi ermənilər tərəfindən dağıdılmışdı. Şəhər işğaldan azad edildikdən sonra məsciddə başlanılan konservasiya və bərpa işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun aparılıb. Layihə "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilib.

Məscidin daxilindən götürülən məhlul, suvaq, təbii daş, kərpic, ağac və boya nümunələri təhlil və düzgün konservasiya üsullarını əldə etmək məqsədi ilə Türkiyədəki Fatih Sultan Mehmet Vəqfi Universiteti nəzdindəki Ahmet Refik Ersen Restavrasiya və Konservasiya laboratoriyasında araşdırılıb. Bu günədək məsciddə möhkəmləndirmə işləri görülüb. İşğal dövründə məscidə ermənilər tərəfindən edilmiş müdaxilələr aradan qaldırılıb.

Ümumiyyətlə, dövlətimiz dini, milli dəyərlərə hər zaman hörməti ilə seçilib. Axı hər bir millətin tarix boyunca inkişaf etmiş, zaman-zaman azacıq dəyişmiş həm dini, həm də milli dəyərləri var və hər bir xalqı millət kimi formalaşdıran da bu dəyərləridir. Bəzən fərdlərə görə dəyişən milli dəyər anlayışı çox zaman ümumi rahatlıq və vətən naminə birlikdəlik nümayiş etdirmək deməkdir. Çünki bir milləti var edən və daima dik saxlayan dini-millimənəvi dəyərləridir və dövlətimizin rəhbəri bunu bildiyi üçün hər zaman dini və milli dəyərlərimizə hörmətlə yanaşıb.

### Həm dinə sadiq, həm də müasir Azərbaycan

Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan həm dini, həm də milli-mənəvi dəyərlərimiz Azərbaycanın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür, bu dəyərlərimiz ən azı duz-çörək qədər hamımıza əzizdir. Dünya xalqları arasında öz qədim milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı var etdiyi, əsrlərdir yaşatdığı və gənc nəsillərə təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya mədəni irsində özünəməxsus yer tutur.

Uzun illər boyu aparılan tədqiqatlar, araşdırmalar qədim köklərə malik Azərbaycanın bir çox adətini əsrlər boyu qoruyub saxladığını üzə çıxarır, necə deyərlər atadan oğula, oğuldan da öz oğluna keçir. Azərbaycanın milli dəyərləri orta əsrlərdə formalaşan, o gündən bu günədək demək olar ki, kontekstdən çıxarılmayan, itirilməyən dəyərlərdir. Bizim "türk-islam dəyərləri" adlandırdığımız əxlaq qaydaları da millət olaraq formalaşmağımızda da əhəmiyyətli rola malikdir.

Dini dəyərlər, həmçinin millimənəvi dəyərlər və azərbaycançılıq bizim hər birimiz üçün qiymətli və müqəddəs amillərdir. Xalqımız əsrlər boyu qoruduğu, tarixin bəzi dönəmlərindən talanaraq, məhv edilərək əlindən alınmağa çalışılan adətləri bu günədək gətirib çıxara bilib, bu da milli özünüdərkin formalaşmasına böyük kömək edib. Düzdür, tarix boyu bu sərvətimizə göz dikən yadellilər olub, amma bir millətin dəyəri onun qanında, genetikasındadır, o səbəbdən də milli-mənəvi dəyərlərimizi bizdən almaq cəhdləri həmişə boşa çıxıb, atalar demişkən, yel qayadan heç nə apara bilmir, tozdan başqa.

### Heydər Əliyevin dinə böyük hörməti

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının həm dini dəyərlərini, həm də millimənəvi irsini ehtiva edən ideyanın - Azərbaycançılığın təşəkkül və inkişafına müstəsna yer ayırdı. Ümummilli liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Ümummilli Lider əsasən üç tərkib hissəni xüsusi qeyd edirdi: dil, din, adət-ənənə.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. "Milli-mənəvi dəyərləri qoruyub saxlamış xalq həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir" deyən Heydər Əliyev hər bir azərbaycanlının öz milli mənsubiyyətinə görə qürur hissi keçirməli olduğunu dilə gətirirdi. O bildirirdi ki, hər bir azərbaycanlı azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıdır.

Məhz o səbəbdəndir ki, Azərbaycanda milli dövlətçilik və millimənəvi dəyərlər sıx daxili vəhdətdədir. Dövlət idarəsi, cəmiyyətin təşəkkülü də bu fondadır. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bu cür inkişaf konsepsiyası ola bilər. Ümummilli lider nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbr və təmkinlə həyata keçirdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"- deyən ulu öndər bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu.

Ulu Öndər deyirdi ki, azərbaycançılığımızı, milli ideologiyamızı, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirməliyik. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ümummilli Lider yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir.

### O dinə həm dövlət başçısı, həm də el ağsaqqalı kimi dəyər verirdi

Ulu öndər Heydər Əliyev islamiyyətlə bağlı olan dini-mərasim və adətlərin də layiqincə keçirilməsi üçün hər cür şərait yaratmışdı. Buna misal olaraq 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbəni ziyarət etməsi, Mirmövsüm Ağa ziyarətgahında din xadimləri və möminlərlə görüşməsi, Bibiheybət məscid-kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi Ulu Öndərin dini- əxlaqi dəyərlərə sadiqliyinin, Allahını və peyğəmbərini sevən imanlı bir insan olmasının real təsdiqi idi.

Qeyd etmək vacibdir ki, qloballaşan dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi vəziyyətlərdə Heydər Əliyev qətiyyətli bir lider kimi öz sarsılmaz mövqeyini ortaya qoyurdu. Ulu öndərin milli-mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir"- bəyanatı problemə təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. "Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik", - deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir. Onun idayalarını indi Prezident İlham Əliyev layiqincə davam etdirir, milli dəyərlərimizə, mənəvi sərvətimizə sahib çıxır.

### Atadan oğula ötürülən dəyərlər

İndi dövlətimiz özündə həm milli, həm də dini dəyərləri ehtiva edən mənəviyyatlı bir cəmiyyətin sütunudur. Ölkə başçısı İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir, bu istiqamətdə dövlət proqramları təsdiq edir. Dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və dini-milli dəyərlərini qoruması önə çəkilir. İndi Dövlətçilik siyasıtində "gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərmağan edilməlidir" prinsipi əsas götürülür.

Prezident İlham Əliyevin həyata keçirdiyi konsepsiyaya görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlətçilik prinsipində dini dəyərlərin payına da önəm verilir. Dövlətimiz ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına da xidmət edir. Bu istiqamətdə atılan hər bir addım dədə-babalarımızdan bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Müasirlik milli kökü, adət-ənənəni, dini dəyərləri itirmək demək deyil, adət-ənənə, milli-mənəvi kökümüz elə müasirlik ənənələrinin fonunda da var ola bilir. Düzdür, zaman dəyişdikcə hər bir cəmiyyətə xas olan insanın psixologiyası, yaşam tərzi, milli dəyər anlayışı da müəyyən qədər dəyişə bilər. Nəsillərin dəyişilməsi ilə dəyərlərin mahiyyəti də dəyişir, amma Azərbaycan kimi milli kökünə bağlı olan ölkələrdə bu baş vermir. Bir ölkənin, müstəqil bir dövlətin ən böyük problemləri o zaman yaranır ki, o ölkədə mənəviyyat məsələsi arxa plana keçirilir. İqtisadi, siyasi məsələlər mənəviyyatdan önə keçirsə o ölkədə, o xalqda rifah halı yaxşılaşmaz, insanlar birlik olmaz. Müstəqilliyin əsas üstünlüyü mənəvi məsələlərə diqqət ayırmaqdır.

Ailə və ağsaqqallıq institutları, doğma dil, din, əxlaqi və mental dəyərlərə söykənən dövlətçilik sistemi əslində bizim milli-mənəvi sərvətimizdir, şansımızdır. Sarsılmaz dövlətlər bu dəyərlər üzərində yaranır və inkişaf edir. İndi o dövlətlər güclüdür ki, onlar tarixləri ilə bu günlərinin sintezini düzgün qura biliblər. Azərbaycan öz tarixi boyunca məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub, inkişaf edib və elə də davam edəcək.

***Lalə Mehralı***

## Bədii gimnastika üzrə Dünya Çempionatı Bakıda keçiriləcək




**Azərbaycanın 2027-ci il 15-19 sentyabr tarixlərində bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edəcək. SİA xəbər verir ki, bu barədə qərar mayın 14-ü və 15-də Türkiyənin Antalya şəhərində keçirilən Beynəlxalq Gimnastika Federasiyasının Şurasının iclasında səsvermə yolu ilə qəbul edilib.**

Qeyd edək ki, yarışı təşkil etmək üçün Azərbaycanla yanaşı, İsrail də namizədliyini irəli sürmüşdü. Bu, ölkəmizin bədii gimnastika üzrə təşkil edəcəyi 3-cü dünya çempionatı olacaq.

Xatırladaq ki, paytaxtımız 2005 və 2019-cu illərdə də bədii gimnastika üzrə dünya çempionatına ev sahibliyi edib.

# Qulaqcıqdan istifadə etmək zərərlidir?






**Məlum olduğu üzrə, qulaqiçi və qulaqüstü olaraq təyin olunan qulaqlıqlar uzun illərdir istifadə olunur. Son zamanlarda isə simsiz qulaqcıqlar geniş yayılıb. Mütəxəssislərin fikrincə, xüsusilə, qulaqdaxili qulaqcıqlardan uzun müddət istifadə eşitmə itkisinə və infeksiyaya səbəb ola bilər.**

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Son illərdə musiqi dinləyərkən və ya telefonla danışarkən istifadə etdiyimiz qulaqlıqlara simsiz modellər əlavə olunub. Bəs bu simsiz, xüsusən də. qulaqdaxili qulaqcıqlardan necə istifadə edilməlidir? Mövzu ilə




bağlı təfərrüatları türk Səhiyyə Elmləri Universitetinin prorektoru, o cümlədən otolarinqoloq Mustafa Gerek danışıb.

### Eşitmə itkisi təhlükəsi

Sağlam qulaqda ani səslərdən qulaqda meydana gələ biləcək zədələrə qarşı qoruma mexanizmi olduğunu ifadə edən Mustafa Gerek, xüsusilə qulaqdaxili qulaqlıqların bu mexanizmə zərər verə biləcəyini söylədi: "Qulaqcıq və xarici eşitmə yolu kanalı xaricdən gələn səsləri toplayır və xarici eşitmə yolu kanalı ilə müəyyən intensivliklə qulaq pərdəsinə çatdırır. Qulaq pərdəsi də titrəyir və bu səsi normal təzyiq mühitində sümükciklər vasitəsilə daxili qulağa 27 dəfə ötürür. Ancaq burada bəzi qoruyucu mexanizmlər var. Bəzi əzələ qrupları ani səs-küy yarandıqda qulağa zərər verməmək üçün öz-özünə büzülərək sümükciklərin işləməsinə manеə törədir. Qulaqcıqlar vasitəsilə qulağın uzun müddət yüksək səsə məruz qalması buradakı hüceyrələrin zədələnməsinə səbəb olur. Bu zədə tez-tez daimi eşitmə itkisinə səbəb olur. Mexanizmlərin düzgün işləməsi üçün səsin kənardan gəlməsi həmişə faydalıdır. Bu şəkildə qoruyucu mexanizmlər işə düşür. Daim yüksək səsə məruz qaldığınız zaman yorğunluq səbəbiylə o qoruyucu mexanizmlər də sıradan çıxır və daxili qulaqdakı səs travmaları ilə eşitmə itkisi baş verir.

Qulaq göbələyi və bakterial risk

Qulağın olmazsa olmazlarından biri olan hava giriş və çıxışının qulaqlıq və ya digər faktorlar tərəfindən tıxandığı zaman başda göbələk olmaqla müxtəlif bakteriya əmələgəlmələrinə səbəb olmasıdır. Qulaqcıqlardan istifadə etmək niyyətindəyiksə, qulaq üstü qulaqlıqlar da adlandırılan böyük qulaqlıqlara üstünlük verməliyik. Qulağa yerləşdirilən eşitmə cihazlarını istisna edirik. Hətta orada qulaq üçün nəzərdə tutulmuş qəliblər dəliklərə malikdir və xarici qulaq kanalının qulaq pərdəsinə qədər olan hissəsinin havalandırılmasını təmin edir. Qulağı tamamilə bağladığınız zaman içəridəki havanı tutur, qapalı mühit yaradırsınız. Nəmlənmə, tərləmə və ya qapalı mühiti havalandıra bilməmə nəticəsində o nahiyədə bir çox infeksiya, xüsusilə göbələk və xarici qulaq infeksiyaları ola bilər. Eyni zamanda, xarici qulaqın özünəməxsus ifrazı var. Bu ifrazat bakteriya və göbələklərin içəridə yerləşməsinin qarşısını alır və bu ifrazat bizim fərqində olmadan çölə atılır. Qulaqlıqdan istifadə etməklə bu infeksiyanın atılmasının qarşısını alırıq. İçəridə yığılır və hətta daha da geriyə gedərək qulaqda tıxanmaya səbəb ola bilər".

### Maqnit sahəsi və Bluetooth

İnkişaf edən simsiz texnologiya ilə kabel problemi aradan qalxsa da, insan sağlamlığı baxımından yeni bir müzakirə mövzusu ön plana çıxdı. Bunlardan biri də bu məhsulların yaratdığı maqnit sahəsinin zərərli olub-olmamasıdır.

Əlbəttə ki, mühüm zərərlərdən biri də bu cihazdan qulaqlıqlara çatana qədər bluetooth ilə maqnit sahəsi yaradaraq qulağa çatmasıdır. Dalğaların və maqnit mühitinin buradakı sinir strukturlarına, xüsusən də beyin toxumasına zərər vermə ehtimalı mübahisəli məsələdir. Ona görə də nəyisə dinləyəcəyiksə, sərbəst mühitdən gələn səsə qulaq asmağa üstünlük verməliyik. Qulaqlıqlardan istifadə ediləcəksə, böyük qulaqlıqlardan istifadə etmək lazımdır. Birbaşa qulağa yerləşdirilən məhsullar zərərli ola bilər.

### İdeal istifadə müddəti və səs yüksəkliyi

Alınacaq bir neçə tədbirlə qulaqlıqdan istifadə zamanı yarana biləcək risklərin qarşısını almaq mümkündür. Bunlardan biri ideal istifadə müddətlərinə diqqət yetirmək, digəri isə səsi lazımi diapazonda saxlamaqdır.

110 desibeldən yuxarı zərərlidir. Bunu 110 desibel reaktiv mühərrik səsi kimi təyin edə bilərik. Bizim üçün ideal səs diapazonu 60-70 desibeldir. Bu dəyər xaricdən eşitdiyimiz səslər üçün keçərlidir. Onu qulağa yerləşdirdiyimiz zaman bu səsi daha yüksək desibellərdə eşidə bilərsiniz. Tutaq ki, siz kənardan 60 desibellik bir səs eşidirsiniz. Eyni səsə qulaqcıqla qulaq asdığınız zaman onu 80-90 desibel kimi qəbul edirsiniz. Xüsusilə də xarici qulağın da bağlı olduğu qapalı bir mühit yaratsanız, qulaq pərdəsi daha çox təzyiq altında işləyir.

Ən vacib məqamlardan birinin gün ərzində qulaqcıq istifadəsinə ara verməkdir. Biz adətən qulaqlıqlardan 15 dəqiqədən çox istifadə etmək istəmirik. Qulaqlıqdan istifadə edəcəksinizsə, gün ərzində onların arasına mütləq vaxt intervalı qoymaq lazımdır. Əgər musiqi dinləyəcəksinizsə, onun azad mühitdən gəlməsinə icazə verin. filmə baxacaqsansa, qoy azad mühitdən, yəni kənardan səs gəlsin.

***Ayşən Vəli***



## "Barselona" 27-ci dəfə çempion oldu!

Futbol üzrə İspaniya La Liqasında 2022/23 mövsümünün qalibi müəyyənləşib. SİA xəbər verir ki, Kataloniya təmsilçisi olan "Barselona" 34-cü turda səfərdə "Espanyol"u məğlub etməklə (4:2) növbəti çempionluğunu rəsmiləşdirib.

Xallarını 85-ə çatdıran "Barsa" sona 4 tur qalmış ən yaxın izləyicisi "Real"ı (Madrid) 14 xal üstələyir. Qalan 4 qarşılaşmada "kral klubu"nun bu fəri aradan qaldırması mümkün deyil. Bu, "Barselona"nın 27-ci İspaniya çempionluğu olub.

## ELAN

Hörmətli Səhimdarlar

"Ağdaş Avtomotoservis"ASC-nin Səhimdarlarının ümumi yığıncağının 30 iyun 2023-cü il saat 11:00-da Ağdaş rayon Yuxarı Qəsil kəndi ünvanında keçiriləcəkdir.

**Yığıncağın gündəliyi.**

1.Cəmiyyətin 2022-ci ilin yekunlarına aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.

2.Cəmiyyətin Nizamnaməsinin yeni redaksiyada müzakirəsi və təsdiqi.

3.Təşkilatı məsələlər

4.ASC-nin gələcək fəaliyyətinin müzakirəsi

5.Digər məsələlər

Yığıncaqda müzakirə ediləcək məsələlərə dair sənədlərlə tanış olmaq üçün hər həftənin iş günləri saat 10:00-dan 12:00-a dək Cəmiyyətin İdarə Heyətinin sədrinə müraciət edə bilərsiniz.

***Avtomotoservis ASC-nin İcraçı drektoru: A.Məmmədov***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**